

Milli azadlıqdan şirin nemət yoxdur!

# Cavab tədbirləri görüləcək!

## Azərbaycan Müdafiə Nazirliyi Bəyanat yaydı




Bax səh. 2


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

26 iyul 2024-cü il, cümə

№ 132 (6718)

Qiyməti 60 qəpik





# Prezidentin arzuladığı Cənubi Qafqaz...

## Regional təhlükəsizlik arxitekturası necə olmalıdır?




Bax səh. 2

# Sülhə doğru daha bir addım...

## COP29 sülh sənədinin imzalanması üçün fürsət olacaqmı?

Bax səh. 3

# Qazaxıstan Orta Dəhlizi genişləndirir

## Kurik limanının Trans-Xəzərə birləşdirilməsi Bakı Beynəlxalq Limanında daşınmaları artıracaq



Bax səh. 4

## Qarabağ və Şərqi Zəngəzurda...

Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında iqtisadi dəyər yaradacaq sahələrdən biri kimi sənaye texnologiyaları parklarının yaradılması ilə bağlı yürüdülən siyasət öz müsbət səmərəsini göstərməkdədir. İki il əvvəl Cəbrayıl rayonundakı "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının, ardınca Ağdam Sənaye Parkının yaradılması bu bölgənin sənaye potenisalının səfərbər edilməsi və gələcək ixracı mühüm əhəmiyyət kəsb edir. 2024-cü ilin birinci yarısında hər iki texnoparkra rezidentlərin marağının artması müşayiət edilib və sərmayə qoyuluşları imkanları artıb. Bu günlərdə Ağdam Sənaye Parkı ailəsinə yeni biznes təmsilçisi daxil olub, "Qarabağ Aqro 44" MMC-nin qeydə alınması ilə sözügedən texnoprakda üzrə rezidentlərin sayı 27-ə çatıb. Yeni rezident Ağdam Sənaye Parkına 1,4 miılyon manat investisiya yatıracaq ki, müəssisədə 20 nəfər işlə təmin ediləcək. İstehsal olunan məhsulların isə həm daxili, həm də xarici bazarlarda satılması nəzərdə tutulur...

Bax səh. 4

## 30 yaşlı Nazirlik...

Ölkəmizdə gənclər siyasətinin əsasını qoyan Heydər Əliyev gəncləri Azərbaycanın gələcək qurucuları adlandırır, onların imkan və bacarıqlarını yüksək qiymətləndirirdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması bu sahədə mühüm tədbirlərin həyata keçirilməsinə geniş imkan vermişdi. Daha sonra isə Prezident İlham Əliyevin diqqət və qayğısı əsasında ölkəmizdə dövlət gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşamağa başlayıb. Ölkə başçısının bu istiqamətdə qəbul etdiyi qərarlar, təsdiq etdiyi Dövlət proqramları uğurla icra olunur və öz müsbət nəticələrini verir.

Əsası Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Yeri gəlmişkən, bu gün Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin yaranmasının 30 ili tamam olur. 1994-cü il iyulun 26-da Ulu Öndərin imzaladığı Fərmanla Gənclər, İdman və Turizm Nazirliyi yaradılıb. 2006-cı ildə isə Prezident İlham Əliyevin...

Bax səh. 5

## Yaxın Şərq NATO-su yarana bilərmi?

İsrailin Baş naziri Benyamin Netanyahu ABŞ-a Yaxın Şərqdə NATO-ya bənzər təşkilat yaratmağı təklif edib. O, təklifi ABŞ-a səfəri zamanı səsləndirib. Konqresdə çıxışı zamanı Netanyahu bildirib ki, ABŞ və İsrail Yaxın Şərqdə təhlükəsizlik alyansı yarada bilər. Netanyahu xatırladıb ki, İkinci Dünya müharibəsindən sonra ABŞ artan sovet təhlükəsinə qarşı çıxmaq üçün Avropada təhlükəsizlik ittifaqı yaratmışdı. "İsraillə sülh içində olan və gələcəkdə sülh içində olacaq bütün ölkələr bu alyansa dəvət olunacaqlar",- deyə İsrailin Baş naziri qeyd edib. Baş nazir yeni alyansı 2020-2021-ci ildə İsrailin bir sıra ölkələrlə imzaladığı "Avraam sazişi"nə uyğun olaraq "Avraam Alyansı" adlandırmağı təklif edib. Xatırladaq ki, 2020-ci ildə ABŞ-nin ovaxtkı Prezidenti Donald Trampın vasitəçiliyi ilə Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Mərakeşin İsraillə münasibətlərin normallaşması haqqında "Avraam anlaşması" imzalanmışdı. Sonradan Sudan da bu anlaşmaya qoşulub...

Bax səh. 6

## Bayden "məşəli" yeni nəslə niyə ötürür?

Payızda keçiriləcək növbəti prezident seçkilərində iştirak etməkdən imtina edən ABŞ Prezidenti Cozef Bayden iyulun 24-də Amerika xalqına müraciət edib. O bildirib ki, irəli getməyin ən yaxşı yolu məşəli yeni nəslə ötürməkdir. Bayden çıxışında Prezident kimi Amerika xalqına xidmət etməkdən şərəf duyduğunu bildirib. "Bir neçə aydan sonra Amerika xalqı Amerikanın gələcək kursunu müəyyən edəcək. Mən seçimimi etdim, öz fikirlərimi bildirdim. Vitse-prezident Kamala Harris təcrübəlidir. O, mənim üçün inanılmaz tərəfdaş və ölkəmiz üçün çox yaxşı liderdir. İndi seçim sizdən, Amerika xalqından asılıdır", - deyə ABŞ Prezidenti qeyd edib.

Cozef Baydenin iyulun 21-də namizədliyini geri götürməsindən sonra ştatlar daxilində ciddi proseslər baş verməkdədir. Bu, xüsusilə noyabrda keçiriləcək prezident seçkisi marafonunda müşahidə edilir. Əslində, dövlət başçısının...

Bax səh. 7



# Qərbsayağı "sülh ismarıcı"

Bax səh. 6



## Okampo yenidən erməni səhnəsində

Bax səh. 7

# Prezidentin arzuladığı Cənubi Qafqaz...




## Regional təhlükəsizlik arxitekturası necə olmalıdır?

Qlobal miqyasda transformasiyalar sürətlənib. Siyasi, iqtisadi sferalarda arzuolunmaz proseslərin getdiyi bir dünyada yaşayırıq. Bəzi regionlarda müharibələr səngimək bilmir, digər bölgələrdə isə yeni qarşıdurma riskləri artır. Belə bir vəziyyətdə yerləşdiyimiz Cənubi Qafqaz coğrafiyasının perspektivləri ilə bağlı sual yaranır: Ölkəmizi, regionumuzu hansı gələcək gözləyir? İnkişafa nail olmaq, sabitliyi qorumaq, potensial riskləri önləmək üçün nə etmək lazımdır? Prezident İlham Əliyev bu günlərdə keçirilən "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində bütün bu kimi suallarla bağlı strateji baxışlarını növbəti dəfə diqqətə çatdırıb.

## Azərbaycan öz yolunu düzgün müəyyənləşdirdi

Azərbaycan 15 müttəfiq respublika ilə birlikdə təxminən 70 il ərzində keçmiş Sovet İttifaqının tərkibində yaşamış bir ölkədir. O dövrün sərt ideoloji çərçivələri var idi və onları aşmaq praktiki cəhətdən mümkün deyildi. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində isə sovet rejimi çökdü və müttəfiq respublikalar müstəqilliklərini bəyan etdilər. O illərin mənzərəsi çox mücərrəd idi, xalqların, müstəqilliyini bəyan edən respublikaların kələcəklə bağlı aydın təsəvvürləri yox idi. Sovet İttifaqının süqutundan sonra Qərbdə və keçmiş sovet respublikalarının çoxunda belə bir fikir var idi ki, irəli getməyin və mövcudluğunu təmin etməyin yeganə yolu böyük ölkələrin diktəsi altında yaşamaqdır. Bu yolu seçənlər də oldu. Ermənistan buna nümunədir. Zamanında böyük güclər tərəfindən Cənubi Qafqaz coğrafiyasında xüsusi layihə kimi yaradılan bu respublika Şimal qonşumuzun - Rusiyanın forpostu olmaq seçimini etdi. Ümumiyyətlə, son gəlişmələr də təsdiqləyir ki, Ermənistan cəmiyyətinə kiminsə forpostu olmadan yaşamaq ruhu hakim deyil. Bu respublika keçmiş sovet dönəmində ittifaq büdcəsinə heç nə verməsə də, havadarlarının dəstəyi ilə mərkəzdən gen-bol güzəştlər qopartmağa nail olurdu. Postsovet dövründə də Ermənistan tarixi ənənəsinə sadiq qalmaqla yenə də kənardan gələn yardımlara, ianələrə ümid bəsləməkdə davam etdi. Fürsətcil dövlət olan Ermənistan son illərdə formalaşan yeni geosiyasi şəraitdə indiyədək onun mövcudluğunu təmin etmiş Rusiyaya arxa çevirərk oriyentasiyasını indi də Qərbə istiqamətləndirib. Bu yolun sonu, əlbəttə ki, qaranlıqdır, faciədir.

Azərbaycana gədikdə isə mənzərə tamam fərqlidir. Bəli, o dövrdə bizə də təzyiqlər çox olurdu, müəyyən mesajlar verilirdi, təhdidlər göstərilirdi. Açıq demək lazımdır ki, bəzi güclər respublikamızı öz çirkin siyasətlərini həyata keçirmək naminə proksi ölkə qismində görürdülər və praktiki müstəvidə buna cəhdlər göstərirdilər. Prezident İlham Əliyevin bildirdiyi kimi, biz fərqli yol seçdik. Bu, asan deyildi. Bizim ölkədə sabitliyi pozmaq səyləri oldu. 2000-ci illərin əvvəllərində narıncı inqilablar, rəngli inqilablar cəhdləri olurdu. Eyni zamanda, bizim seçimimiz Azərbaycanın satellit ölkəyə, "proksi" ölkəyə, vassal, qul ölkəyə çevrilməsinin qarşısını aldı və bu da əlbəttə ki, bizim xalqımızın çox dəhşətli dərəcədə əziyyət çəkməsinə imkan vermədi. "Biz de-fakto və de-yure müstəqilliyi seçdik. Müstəqil xarici siyasət, özünü təmin edən iqtisadiyyat, tərəfdaşlarımızla, - o ölkələrlə ki, onlar bizimlə əməkdaşlığa can atırdı, - səmərəli əməkdaşlıq. Əlbəttə ki, daxili potensialımıza söykənirdik. Eyni zamanda, biz region ölkələri ilə də sıx əlaqələr qurduq. Bu, bizə imkan verdi ki, iqtisadi problemlərin böyük əksəriyyətini həll edək və biz öz üzərimizdə çalışdıq, diqqətimizi xalqımıza, ölkəmizə yönəltdik və dedi-qodulara, Avropa Parlamentində və ya Avropa Şurasında kiminsə hansısa bəyanatına məhəl qoymadıq, fikir vermədik. Biz onlara tamamilə biganə yanaşırıq".

Real müstəqillik, suverenlik prinsipinə əsaslanan siyasət Azərbaycana bütün dünyada böyük nüfuz qazandırıb. Respublikamız regional aktor olmaqdan çıxaraq beynəlxalq səviyyədə proseslərə təsir göstərən, bütün dünya üzrə güclü həmrəylik dalğası yaradan qlobal aktora çevrilib.

## Xalqın milli ideya ətrafında birləşməsi

Bütövlükdə, götürdükdə Azərbaycan cəmiyyəti vətənpərvərdir, tarixdən gələn ənənələrinə, milli-mənəvi dəyərlərinə böyük hörmətlə yanaşır, dövlətini sevir. Azərbaycan dövləti də bir qayda olaraq öz siyasətində milli maraqları, xalqdan gələn sosial sifarişləri əsas tutur. Ölkəmizin gücünü artıran ən mühüm məqam da məhz budur - dövlət və xalq milli ideyalar ətrafında güclü həmrəylik nümayiş etdirir və hədəflərə nail olur. "Mən bu haqda fevralda inauqurasiya mərasimindəki çıxışımda danışmışam. Qeyd etmişəm ki, biz hamımız bir yerdə cəmiyyət, bütün insanlar - hansılar ki, gələcək inkişafa töhfə vermək istəyən insanlar gərək yeni milli ideyanı formalaşdıraq. Bizim belə bir ideyamız var idi. Yəni siyasi üstünlükdən asılı olmayaraq belə bir ideyamız var idi. Bu da ərazi bütövlüyümüzün bərpası və öz ərazilərimizin qaytarılması idi. Biz buna nail olduq, keçən ilin sentyabrında biz buna tamamilə nail olduq", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Milli ideyanın gücü ondadır ki, onu milli-dini kimliyindən asılı olmayaraq cəmiyyətin hər bir üzvü öz amalı, istəyi kimi qəbul edir və onun uğrunda mücadilə aparmağa hazır olur. Azərbaycan dövləti və cəmiyyəti təxminən otuz il ərzində müstəqilliyimizin ilk illərində üzləşdiyimiz işğal faktına son qoymaq, ərazi bütövlüyümüzü və suverenliyimizi təmin etmək uğrunda ara vermədən mücadilə apardı. Yol çətin oldu. Milli mücadilə bir mərhələdə danışıqlar masasında aparıldı. Bu mərhələdə ölkəmizə, şəxsən danışıqları aparan Prezident İlham Əliyevə təzyiqlər göstərmək, Onu güzəştlərə getməyə məcbur etmək cəhdləri tez-tez təkrarlanırdı. Dövlətimizin başçısı isə hər dəfə bu təzyiqləri dəf edərək Azərbaycanın haqlı mövqeyini əsaslandırırdı.

Aparılan sülh danışıqlarında fəal iştirak edən Prezident İlham Əliyev paralel şəkildə güclü iqtisadiyyat qurdu, ölkənin maliyyə imkanlarını genişləndirdi. Bu möhkəm iqtisadi baza əsasında ordu quruculuğu məsələləri dövlət siyasətinin prioriteti kimi müəyyən olunmuşdu. Aparılan məqsədyönlü siyasət, o cümlədən müasir ordu quruculuğu Azərbaycana öz hədəfinə çatmağa imkan verdi. Bunu xüsusi olaraq vurğulayan Prezident İlham Əliyev "Əlbəttə, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası, - bu, ötən ilin sentyabrında baş verdi, - ən mühüm hadisədir. Təkcə bu, birinci və ikinci forum arasında deyil, ümumiyyətlə, müasir tariximizdə mühüm hadisə oldu", - deyə bildirib.




## Yeni mərhələdə yeni ümummilli ideya

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra ölkəmizin xaricdəki bədxahları düşünürdülər ki, müharibə itkilərini bərpa etmək, qüvvə toplamaq üçün Azərbaycana uzun illər lazım olacaq. Ölkə daxilində isə bəzi hallarda arxayınlıq əlamətləri müşahidə edilirdi. Bəziləri şanlı Zəfərimizin eyforiyasına qapılaraq güman edirdilər ki, əsas məsələsini həll edən Azərbaycan daha sakitləşməli və xüsusi səylə çalışmamalıdır.

Ancaq yox! Uzaqgörən Lider İlham Əliyev müharibədən dərhal sonra yeni mərhələdə Azərbaycanın qarşısında duran prioritetlərə diqqət çəkdi. Onun tapşırıqları əsasında yeni strateji mərhələ üçün beş mühüm prioritet müəyyənləşdirildi ki, onlardan biri də müharibədə işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın tez və ləyaqətlə təmin edilməsi idi. Beləliklə, Prezident İlham Əliyev qalib Azərbaycanı işğaldan azad edilmiş ərazilərin bərpasına, yenidənqurma işlərinə fokusladı. Bu da son dərəcə çətin və məsuliyyətli hədəfdir. İşğal dövründə bəhs olunan ərazilərdə daş-daş üstündə qalmayıb, şəhərlər, kəndlər, tarixi abidələr erməni vandalları tərəfindən büsbütün dağıdılıb, sərvətlərimiz talan edilib. Müəyyənləşdirilən məqsəd çətin görünsə də, İlham Əliyevin çağırışı cəmiyyətdə rəğbətlə qarşılandı. Aradan az vaxt ötəndən sonra qürur hissi ilə deyə bilərik ki, işğaldan azad edilmiş ərazilərdə yeni bir Qarabağ formalaşmaqdadır. Artıq doğma yerlərə soydaşlarımızın qayıdışına da start verilib.

Həyat davam etdiyi kimi, cəmiyyətimizdə hər zaman yeni ümummilli ideyalar ətrafında səfərbər olunmalıdır. Şuşa forumunda bir daha bu barədə danışan dövlətimizin başçısı vurğulayıb: "Lakin biz dincəlməməliyik, biz bu mövzunu uzun-uzadı müzakirə etməməliyik. Çünki bu mövzunu çox uzun müddət istismar etmək olar, lakin bu, bizə bir nəticə verməyəcək. Sözsüz ki, biz heç bir zaman nə işğalı, nə fəsadları, nə verdiyimiz qurbanları, nə böyük Qələbəmizi unutmayacağıq. Biz və bizim gələcək nəsillərimiz bu Qələbə ilə fəxr edəcək. Lakin biz buna fokuslanmamalıyıq, biz bu mövzunu daimi istismar etməməliyik və onu daimi bir rəmzə çevirməməliyik, biz irəli getməliyik".

## Daha təhlükəsiz region naminə

Transformasiyalar dünyanın həssas regionlarından biri olan Cənubi Qafqazdan da yan keçməyib. Burada da həm geosiyasi, həm də geoiqtisadi müstəvidə ciddi dəyişikliklər müşahidə edilir. "Cənubi Qafqaz regionuna gəldikdə deyə bilərəm ki, biz tarixi transformasiyanın şahidiyik, tarixi, geosiyasi dəyişikliklər baş verir. Ənənəvi ittifaqlar bir qədər zəifləyib və yeni əməkdaşlıq formatları meydana gəlib", - deyə dövlətimizin başçısı vurğulayıb.

Elə etmək lazımdır ki, baş verən transformasiyalar regionda fəsadlərla müşayiət olunmasın. Burada region dövlətləri arasında münasibətlər önə çıxır. Ayrılıqda götürülmüş bir ölkənin səyləri regional təhlükəsizliyin təmin olunması üçün yetərli deyil. Burada birgə səylər və birgə çalışmalar vacibdir. 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq qalib Azərbaycan regionda keyfiyyətcə yeni reallıqlar yaradıb. Bu reallıqlar Cənubi Qafqazın nəhayət təhdidlərdən, müharibə risklərindən qurtulması üçün münbit zəmin formalaşdırıb. Azərbaycanın yaratdığı yeni reallıqlar gələcəyə nikbin baxmaq üçün əsas verir. Prezident İlham Əliyev əminliyini ifadə edərək bildirib ki, bütün bu hadisələr regionu daha proqnozlaşdırılabilən edəcəkdir. "Yəni biz - bu regionun xalqları özümüzü təhlükəsiz hiss edəcəyik. Buna əminəm, münaqişələr və qarşıdurmalar keçmişdə qalıb". - deyə dövlətimizin başçısı vurğulayıb.

Qonşu dövlətlər, xüsusilə də Ermənistan bu reallıqları düzgün dəyərləndirməli və fürsət pəncərələrinin həmişə açıq olmasına töhfələrini verməlidirlər. Biz dərindən başa düşməliyik ki, ölkələrdə baş verən transformasiyalar bütövlükdə Cənubi Qafqazda vəziyyətin dəyişməsi ilə nəticələnir. Prezident İlham Əliyev mühüm bir məqama diqqət çəkib. Bu da ondan ibarətdir ki, biz Gürcüstanın, Ermənistanın və Azərbaycanın xarici siyasət vektorlarının necə inkişaf etməsindən asılı olaraq, hansı Cənubi Qafqazda yaşamaq istədiyimizi müəyyənləşdirə bilərik. Azərbaycan regional əməkdaşlıq təşəbbüslərindən çıxış edir. Məlumdur ki, son vaxtlarda Qərb Ermənistan üzərindən Cənubi Qafqazda mövcudluğunu təmin etməyə çalışır. Təbii ki, bu mövcudluq xoş niyyətə əsaslanmır. Təəssüf ki, Ermənistan bütövlükdə, Cənubi Qafqazın taleyinə biganə yanaşaraq Qərbin regiona ayaq açmasına "yaşıl işıq" yandırır. Hazırda bu ölkə Fransanın və digər dövlətlərin təhriki ilə sürətlə silahlanma yolu tutub ki, bu da regionun gələcəyi üçün çox təhlükəlidir. Azərbaycan Qərbin və Ermənistanın birlikdə qoşulduqları belə çirkin oyunların qəti şəkildə əleyhinədir. Fransa kimi ölkələr burada yalnız pozucu, təxribatçı rol ala bilərlər. Azərbaycanla Ermənistan arasında münasibətlər ilk növbədə regional əməkdaşlıq, ikili format çərçivəsinədə tənzimlənməlidir. Azərbaycan və Ermənistan qonşu dövlətlərdirlər. Buna görə də Ermənistan ölkəmizə qarşı əbədi düşmənçilik siyasətinə son qoymalıdır. Münasibətlərdə yeni səhifə açılmalıdır. Yeri gəlmişkən, Azərbaycanın təklif etdiyi ikili formatda aparılan müzakirələr çərçivəsində müəyyən razılaşmalar əldə olunub.

Respublikamız davamlı olaraq 3+2 formatını dəstəkləyir. Bu formatda son görüş Tehranda baş tutdu, növbəti görüş yeri isə Türkiyə olacaq. Gələcəkdə Gürcüstanın da qoşulması ilə bu formatı genişləndirmək mümkündür.

Regionda qarşılıqlı inam mühitinin möhkəmlənməsi üçün Zəngəzur Dəhlizinin açılması çox vacibdir. Deyə bilərik ki, bununla regionun təhlükəsizlik arxitekturası tamam fərqli şəkildə dəyişəcək. Azərbaycanın irəli sürdüyü və qətiyyətli siyasi iradə göstərdiyi bu layihə Avrasiyada yeni bir əməkdaşlıq format yaradacaq. Bundan Xəzər - Qara dəniz hövzələri və daha geniş coğrafiyalarda yerləşən ölkələr, o cümlədən də Ermənistan faydalanacaq. Buna görə də region dövlətləri Zəngəzur Dəhlizinin reallığa çevrilməsində Azərbaycana daha güclü şəkildə dəstək verməlidirlər. Ümumiyyətlə, bütün məsələlərdə region dövlətlərinin koordinasiyalı fəaliyyətləri çox zəruridir.

***Mübariz ABDULLAYEV***

# Cavab tədbirləri görüləcək!

## Azərbaycan Müdafiə Nazirliyi Bəyanat yaydı

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bəyanat yayıb.

Bəyanatda deyilir:

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi son günlərdə Ermənistanın Kəlbəcər istiqamətində ağır silahlar və Tovuz istiqamətində kvadrokopter tətbiq etməklə təxribatlar törətməsi barədə məlumatlar verib.

Qeyd edək ki, Ermənistan tərəfindən bu kimi təxribatların törədilməsi birinci hal deyil və davamlı xarakter daşıyır. Amerika Birləşmiş Ştatlarının Ermənistanda keçirdiyi hərbi təlimlər, Fransanın Ermənistanı öldürücü silahlarla təchiz etməsi və Avropa İttifaqı tərəfindən "Avropa Sülh Fondu" adı altında Ermənistana ilkin mərhələdə on milyon avro dəyərində hərbi yardımın göstərilməsi işğalçı Ermənistanı bu kimi təxribatlar törətməyə həvəsləndirir və Azərbaycana qarşı növbəti müharibəyə hazırlaşdırılmasına dəlalət edir.

Müdafiə Nazirliyi bir daha xəbərdarlıq edir ki, Ermənistan və onun havadarları Cənubi Qafqaz regionunda yeni müharibə ocağı yaratmaq kimi niyyətlərindən çəkinməlidirlər. Ölkəmizə qarşı bu kimi təxribat əməlləri dayandırılmadığı təqdirdə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin arsenalında olan bütün vasitələrdən istifadə etməklə özünü müdafiə məqsədilə lazımi cavab tədbirləri görüləcək.

Bildiririk ki, regionda vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin və onun havadarlarının üzərinə düşəcək".



# Sülhə doğru daha bir addım...

## COP29 sülh sənədinin imzalanması üçün fürsət olacaqmı?

Qalib Azərbaycan bütün fürsətlərdən istifadə etməklə Ermənistanla münasibətlərin tənzimlənməsi prosesinə təkan verməyə çalışır. Ölkəmizin bir qədər bundan əvvəl rəsmi qaydada Ermənistana COP29-da iştirak etməklə bağlı müraciət ünvanlaması bunun daha bir təsdiqidir. Azərbaycanın bu müraciəti fonunda COP29-da iki ölkə arasında sülh sazişinin və yaxud çərçivə sənədinin imzalanması ilə bağlı müzakirələr intensivləşib. Fərqli baxışlar və yanaşmalar ifadə olunur.

### Azərbaycanın xoş niyyəti

Azərbaycan postmüharibə dövründə yalnız sülh çağırışlarından çıxış edir. Dünya ölkələrinin təcrübəsi də təsdiqləyir ki, münaqişələr əbədi olaraq davam edə bilməz. Azərbaycanla Ermənistan da qonşu dövlətlər olaraq müharibə səhifəsini bağlamalı və gələcəyə baxmalıdırlar. Öz növbəsində Azərbaycan sülhyaratma prosesinə sadiqdir və bu prosesdə ədalət, beynəlxalq hüquq prinsiplərindən çıxış edilməsinin tərəfdarıdır. Respublikamızın İkinci Qarabağ müharibəsi başa çatandan sonra qarşı tərəfə ünvanladığı beş bənddən ibarət sülh paketi də məhz beynəlxalq miqyasda qəbul edilmiş prinsiplər əsas götürülməklə hazırlanıb.

Ev sahibi olan Azərbaycanın Ermənistana COP29-da iştirak etməklə bağlı rəsmi qaydada müraciət ünvanlaması ölkəmizin xoş niyyətinin daha bir ifadəsidir. Bu dəvət qarşılıqlı inam mühitinin yaranmasına xidmət edir. Ümumiyyətlə, bütün fürsətlərdən istifadə etməklə sülh üçün imkanları artırmaq lazımdır. Azərbaycan da məhz buna çalışır. Məlum olduğu kimi, indiyədək COP29-la bağlı həm Azərbaycandan, həm də Ermənistandan xoş niyyət ifadə olunub. Belə ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş Nazirinin Aparatının ötən il dekabrın 7-də yaydığı bəyanatla əldə olunan əsas razılıq istiqamətlərindən biri məhz COP29-la bağlı idi. Həmin ərəfədə Ermənistan da COP29-a ev sahibi olmaq üçün Şərqi Avropa Qrupu üzrə namizədliyini irəli sürmüşdü. Sonradan bu ölkə namizədliyini geri götürdü və respublikamızın namizədliyini dəstəklədi. Azərbaycan isə Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyinə öz dəstəyini verdi. İndi Azərbaycanın Ermənistanı qlobal iqlim konfransına dəvət etməsi çox doğru olaraq ölkəmizin xoş ənənəyə sadiqliyi anlamında qəbul olunur.

Ermənistanda isə hələlik mücərrədlik hökm sürür. Belə ki, aradan günlər ötsə də bu ölkədən dəvətin qəbul, edilib-edilmədiyi və yaxud iştirakın hansı səviyyədə baş tutacağı ilə bağlı konkret cavab gəlməyib. "Ermənistanın baş naziri Nikol Paşinyan avqustda keçirəcəyi mətbuat konfransında ölkəsinin noyabrın 11-22-də Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirakına dəvət məsələsinə toxunacaq". Bu barədə "Hraparak" qəzetinə Ermənistan hökumətinin informasiya və ictimaiyyətlə əlaqələr idarəsindən məlumat verilib. "Biz Ermənistan baş nazirinin Bakıya gedərək COP29 konfransında iştirak edib-etməyəcəyi ilə maraqlanmışıq. Baş nazir bu mövzuya avqust ayında keçiriləcək mətbuat konfransında toxunacaq", - deyə məlumatda bildirilib.

Burada Ermənistan rəsmilərinin soyuqqanlılığına heyrət etməyə bilmirsən. COP29 qlobal tədbirdir. Burada çoxsaylı ölkələrin dövlət və hökumət başçıları iştirak edəcəklər. Bu mənada, iqlim konfransı ikitərəfli dialoqu inkişaf etdirmək üçün yaxşı fürsət ola bilər. Buna görə də Ermənistanın Azərbaycanın xoş niyyətinə cavabı növbəti dəfə gecikdirməsinin məntiqi başa düşülmür. Bu ölkənin rəhbərliyi eyni ssenari üzrə hərəkət edir. Məlumdur ki, Azərbaycanın hazırlayıb təqdim etdiyi beş bənddən ibarət sülh təklifinə də qarşı tərəfdən uzun müddət ötəndən sonra çox məsuliyyətsiz cavab verilmişdi. Belə görünür ki, N.Paşinyan və komandası bu dəfə də xaricdəki havadarlarından Bakıya gəlib-gəlməmək bağlı tezislər gözləyir. Əgər Makron və digərləri "hə" desələr, Paşinyan Bakıya gələ bilər. Ermənistanın "Yox" cavabı da İrəvanda deyil, Parisdə və yaxud digər paytaxtlarda veriləcək. Bu günlərdə Avropa Birliyinin Londonda baş tutan tədbirində Paşinyanın Azərbaycan Prezidenti ilə görüşdən imtina etməsi göstərdi ki, Ermənistanın liderləri kimin göstərişləri əsasında iş cədvəlini qurur. London Sammitindən öncəki günlərdə Ermənistan mətbuatında iki liderin görüşünün razılaşdırıldığı barədə məlumatlar tirajlanırdı. Paşinyan Sammit çərçivəsində Makronla görüşdükdən sonra isə onun planları tamam dəyişdi. Təkcə bu fakt nəticə çıxartmaq üçün kifayətdir.




### Mümkün görüşdən gözləntilər

Əvvəlcə onu qeyd edək ki, Ermənistan cəmiyyətində N.Paşinyanın və yaxud iqtidarın digər yüksəksəviyyəli rəsmilərinin Bakıya ayaq açmasına münasibət birmənalı deyil. Bir çox erməni ekspertləri bunu təslimçilik anlamında təqdim edirlər. Halbuki belə yanaşmaların heç bir məntiqi əsası yoxdur. Xatırladaq ki, artıq tarixdə qalmış Dağlıq Qarabağ münaqişəsi davam etdiyi illərdə Azərbaycanın və Ermənistanın rəsmiləri, idmançılar Bakıda və yaxud İrəvanda müxtəlif beynəlxalq tədbirlərə qatılıblar. Ancaq torpaq itkilərinə məruz qalan Azərbaycanda bu heç bir halda təslimçilik kimi dəyərləndirilməyib, cəmiyyətimiz buna tam dözümlü münasibət sərgiləyib.

Noyabrda mümkün görüşdə hansısa bir sənədin imzalana biləcəyi ehtimallarına gəldikdə isə uzunmüddətli sülh sazişinin imzalanmasından söhbət belə gedə bilməz. Doğrudur, son vaxtlarda verilən məlumatlara əsasən, sazişin mətni hər iki tərəfdən təxminən 80-90 faiz civarında razılaşdırılıb. Ancaq ortada razılaşdırılmamış fundamental məsələlər var. Söhbət ilk növbədə Azərbaycanın iki mühüm şərtinin yerinə yetirilməməsindən gedir. Azərbaycan reallıqdan çıxış edərək Ermənistana artıq ölü quruma çevrilmiş Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə birgə müraciət ünvanlamağa çağırış edir. Ermənistan isə müxtəlif bəhanələr gətirməklə bunu etməyə tələsmir. "Birincisi, Ermənistan bizim təkliflərə müsbət cavab verməlidir ki, həm Ermənistan, həm Azərbaycan birgə ATƏT-ə müraciət etsin ki, Minsk qrupu ləğv edilsin. Çünki artıq uzun müddətdir bu qrup fəaliyyətsizdir, bəlkə də bir-iki ildir. Minsk qrupunun fəaliyyətdə olması üçün heç bir səbəb yoxdur. Çünki həmsədrlər de-fakto bir-biri ilə müharibədədir, yəni onların ikisi digərinə qarşı bir yerdədirlər. Fransa burada bütün imkanlardan məhrum edilib. Onlar nəinki vasitəçi, heç bu regionda ola bilməzlər. Onlar Cənubi Qafqaz regionunda bizim razılığımız olmadan mövcud ola bilməzlər. Bizsiz onu etmək istəyirlərsə, onlar uğursuzluğa düçar olacaqlar və bu, bir daha onlar üçün çox acınacaqlı və ağrılı bir məsələ olacaq", - deyə Prezident İlham Əliyev İkinci Şuşa Qlobal Media Forumunda sualları cavablandırarkən bildirib.

Respublikamızın digər mühüm şərti isə Ermənistan konstitusiyasında zəruri dəyişikliklərin edilməsi ilə bağlıdır. Bu ölkənin əsas qanununda Azərbaycana qarşı ərazi iddialarını özündə ehtiva edən müddəalar yer alır. Həmin müddəalar əsas qanunda qaldıqca sülh sazişinin imzalanması mümkün deyil. Buna görə də Ermənistan real olaraq sülh istəyirsə mütləq qaydada ölkəmizə qarşı ərazi iddialarına konstitusional əsasda son qoymalıdır. "Növbəti şərt odur ki, Ermənistan konstitusiyasında dəyişikliklər edilməlidir. Bizim onların daxili işlərinə hər hansı bir müdaxilə etmək niyyətimiz yoxdur. Ermənistan konstitusiyasında müstəqillik barədə müddəa var və orada Azərbaycanın ərazi bütövlüyünə qarşı təhlükə var, təhdid var. Orada Ermənistanın və dırnaqarası "Dağlıq Qarabağ"ın birləşməsindən söhbət gedir. Yəni bu müddəa o konstitusiyada olduğu müddətdə sülh sazişi mümkün deyil", - deyə Prezident İlham Əliyev vurğulayıb.



COP29 tədbirində çərçivə sənədinin imzalanması daha mümkün görünür. Bu sənəddə hər iki ölkə sülhə sadiqliyini bir daha bəyan edə bilər. Bakıda çərçivə sənədinin imzalanması baş tutarsa, orada Azərbaycanın yuxarıda xatırlatdığımız iki vazkeçilməz şərti mütləq qaydada qeyd olunmalıdır. Biz çox tez-tez Ermənistan rəsmilərinin verdikləri vədlərin arxasından geri çəkildiklərinin şahidi olmuşuq. Artıq onların sözlərinə, vədlərinə hər hansı bir inam qalmayıb. Buna görə də onlardan söz yox, imzalanmış, müddəaları konkret şəkildə göstərilmiş sənədlər almaq lazımdır. Beləliklə, gözləyək, görək, COP29 sülh sənədinin imzalanması üçün bir fürsət olacaqmı?

***Mübariz FEYİZLİ***

# Vahid Sağlamlıq dialoqu...

## ÜST Azərbaycanda mühüm tədbir keçirdi

Ötən gün Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı Ölkə Ofisi "Vahid Sağlamlıq: sektorlararası dialoqla COP29-a hazırlıq" adlı simpozium təşkil edib. Tədbir Vahid Sağlamlıq yanaşmasını və insan-heyvan-ətraf mühit interfeysində təhdidləri azaltmaq üçün davamlı strategiyaların işlənib hazırlanmasında onun mühüm rolunu anlamaq üçün yerli və beynəlxalq tərəfdaşları bir araya gətirib.

Simpozium potensial təhlükələri azaldan, iqlim dəyişikliyinin sağlamlığa təsirlərini aradan qaldıran və bütün sektorlarda davamlılığı təşviq edən davamlı strategiyaların işlənib hazırlanması üçün hərtərəfli çərçivə sənədini təklif edib. Tədbirdə COP29 üçün nəzərdə tutulan müzakirələr və məqsədlərə uyğun olaraq, iqlim dəyişikliyi ilə mübarizə üçün inteqrasiya olunmuş sağlamlıq və ətraf mühit siyasətlərinə ehtiyac olması vurğulanıb.

Qeyd edək ki, tədbirdə COP29 sədrliyi, müvafiq nazirliklər, universitetlər, vətəndaş cəmiyyəti, özəl sektor, gənclər və BMT agentliklərinin qərar qəbul edən şəxsləri və texniki ekspertləri iştirak ediblər.

**"Vahid Sağlamlıq dialoqunun faydalarına inanıram"**

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva bildirib ki, COVID-19 pandemiyası insanların, heyvanların və ekosistemlərin sağlamlığının bir-biri ilə sıx bağlı olduğunu xatırladır: "Bu il Braziliyada dağıdıcı daşqınlar, Meksikada rekord istilik dalğaları baş verib, Asiya, Avropa və Afrikada milyonlarla insan həddindən artıq istilərdən təsirlənib. İnsan fəaliyyəti və stresli ekosistemlər xəstəliklərin yaranması və yayılması üçün yeni imkanlar yaradıb. Bu stres amillərinə heyvan ticarəti, kənd təsərrüfatı, heyvandarlıq, urbanizasiya, hasilat sənayesi, iqlim dəyişikliyi, yaşayış mühitinin parçalanması və müəyyən ərazilərə müdaxilə daxildir. İnsan, heyvan və ətraf mühitin sağlamlığı arasında sıx əlaqələr müvafiq sektorlar arasında sıx əməkdaşlıq, ünsiyyət və koordinasiya tələb edir. Mən koordinasiyaya, əməkdaşlığa və Vahid Sağlamlıq dialoqunun faydalarına inanıram".







**Azərbaycanın Vahid Sağlamlıq yanaşması alqışlanmalıdır...**

V.Andreeva bildirib ki, Vahid Sağlamlıq insanların, heyvanların və ekosistemlərin ayrı-ayrılıqda saxlanılması əvəzinə, bu sahələri birləşdirərək onların sağlamlığını optimallaşdırmaq üçün bir yanaşmadır: "Bu sektorlar üzrə səyləri birləşdirməklə biz sağlamlıq risklərinin qarşısını daha effektiv şəkildə ala və idarə edə bilərik. Mən Azərbaycanın Vahid Sağlamlıq yanaşmasına marağını çox alqışlayıram. Ümid edirəm ki, bugünkü simpozium Vahid Sağlamlıq mövzusunda sektorlararası dialoqa başlayacaq. Əməkdaşlıq və tərəfdaşlıq Vahid Sağlamlığın mərkəzindədir. Bu, hökumətlərin, beynəlxalq təşkilatların, elmi dairələrin və vətəndaş cəmiyyətinin birgə səylərini tələb edir. Bu maraqlı tərəflərin bu gün burada olduğunu qeyd etməkdən məmnunam.

**COP29 bu müzakirənin davamı üçün əla fürsətdir**

Vladanka Andreeva əlavə edib ki, Dubayda COP28-də ilk Sağlamlıq Günü keçirildi. Belə ki, COP28 Sağlamlıq Günündə müzakirə edilən əsas mövzulardan biri də iqlim dəyişikliyinin insan sağlamlığına təsirlərini, o cümlədən Vahid Sağlamlıq vasitəsilə aradan qaldırmaq üçün uyğunlaşma tədbirlərinin müəyyən edilməsi və miqyasının artırılması olub: "Bu ilin noyabrında Bakıda keçiriləcək COP29 bu müzakirəni davam etdirmək üçün əla fürsət təqdim edir. COP29 Prezidentliyi sağlamlıq, insan kapitalı, iş, təhsil, uşaqlar və gənclərə həsr olunmuş tematik gün elan edib".

**Azərbaycanda ciddi profilaktik tədbirlər görülür**

Daha sonra ÜST-nin Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri Hande Harmancı COVID-19-un Fransada yenidən yayılması xəbərlərinin verildiyini qeyd edib. Onun sözlərinə görə, bu vəziyyət Azərbaycanda da potensial risklər yarada bilər, çünki beynəlxalq səfərlər və əlaqələr xəstəliyin sürətlə yayılmasına səbəb ola bilər: "Buna görə də Azərbaycanda epidemioloji nəzarət və profilaktik tədbirlər ciddi formada görülür və görülməkdədir. Peyvəndləmə proqramları və xəstəliyin monitorinqi davam edir. Bu tədbirlər virusun Azərbaycanda yenidən yayılmasının qarşısını almaq və cəmiyyətin sağlamlığını qorumaq məqsədi daşıyır".

**Məlumat mübadiləsi də önəmlidir...**

H.Harmancının sözlərinə görə, ÜST və digər beynəlxalq təşkilatların vahid sağlamlıq yanaşması insanların, heyvanların və ətraf mühitin sağlamlığını bir-birinə bağlı olaraq görür: "Bu yanaşma xəstəliklərin qarşısının alınmasında və diqqətdə saxlanılmasında mühüm rol oynayır. Azərbaycanda epidemioloji vəziyyətin qiymətləndirilməsi və potensial təhlükələrin qarşısının alınması üçün bu sahədə çalışan bütün qurumlar arasında sıx əməkdaşlıq vacibdir. Xəstəliklərin yayılmasının qarşısını almaq üçün beynəlxalq təşkilatlarla və digər ölkələrlə məlumat mübadiləsi də önəmlidir".

***Yeganə BAYRAMOVA***

# Qarabağ və Şərqi Zəngəzurda...



## Sənaye parklarına yeni investorlar cəlb olunur

Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında iqtisadi dəyər yaradacaq sahələrdən biri kimi sənaye texnologiyaları parklarının yaradılması ilə bağlı yürüdülən siyasət öz müsbət səmərəsini göstərməkdədir. İki il əvvəl Cəbrayıl rayonundakı “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının, ardınca Ağdam Sənaye Parkının yaradılması bu bölgənin sənaye potensialının səfərbər edilməsi və gələcək ixracı mühüm əhəmiyyət kəsb edir. 2024-cü ilin birinci yarısında hər iki texnoparkda rezidentlərin marağının artması müşayiət edilib və sərmayə qoyuluşları imkanları artıb. Bu günlərdə Ağdam Sənaye Parkı ailəsinə yeni biznes təmsilçisi daxil olub, “Qarabağ Aqro 44” MMC-nin qeydə alınması ilə sözügedən texnoparkda üzrə rezidentlərin sayı 27-yə çatıb. Yeni rezident Ağdam Sənaye Parkına 1,4 milyon manat investisiya yatıracaq ki, müəssisədə 20 nəfər işlə təmin ediləcək. İstehsal olunan məhsulların isə həm daxili, həm də xarici bazarlarda satılması nəzərdə tutulur.

Qeyd edək ki, Araz Vadisi İqtisadi Zonasında da sənaye sektoruna investisiya cəlb edən rezidentlərin sayı son bir ildə artıb. Cəmi 3 il ərzində bu ərazidə Rusiyanın “Kamaz”, İtaliyanın “İveco” markalı avtomobilləri üçün servis mərkəzi yaradılıb və rezidentlərin sayı artmaqdadır. Artıq 5 sahibkarlıq subyekti Parkın rezidenti kimi, 1 sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyata alınıb və investisiya təşəbbüsləri dayanmadan artır.

Sənaye parkları həmin ərazidəki iqtisadi imkanların daha da artırılması, qeyri-neft sektorunun davamlı inkişafına töhvə verəcək resursların tam hərəkətə gətirilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun təmin edilməsində mühüm rol oynayır. 4-cü sənaye inqilabının ən inadlı və innovativ hədəflərini qarşıya məqsəd qoymuş Azərbaycanın bütün sənaye parklarının vahid ali prinsipi dünya bazarında rəqabətdən geri qalmayan malların ixracını təmin etməkdir. Azərbaycan hökuməti sənaye parklarının yaradıldığı ilk gündən (ilk sənaye parkı olan Sumqayıt Kimya Parkı 2011-ci ildə yaradılıb) bu iqtisadi modeli iqtisadiyyatın innovativ və yüksək texnologiyalar üzrə aparıcı bölməsi kimi müəyyən edərək rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün bütün zəruri imkanları yaradıb, müxtəlif iqtisadi stimullar, güzəştlər, dövlət dəstəyi tədbirləri verib, ən münbit şəraiti formalaşdırıb, parklara investisiya qoyuluşlarını motivasiya etmək üçün sahibkarlara dünya praktikasında azad iqtisadi zonalarda tətbiq olunan səmərəli iqtisadi alətləri tətbiq edib. Vergi qanunvericiliyinə edilmiş dəyişikliklərə əsasən, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin edilir. Eyni zamanda, qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisi, torpaq vergisi və mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən texnoparkların rezidentləri isə həmin güzəştlərdən əlavə, istehsal prosesində istifadə etdikləri bir sıra xammal və materialların idxalı üzrə də ƏDV-dən azad olunublar. Həmçinin istehsal fəaliyyəti ilə məşğul olan həmin rezidentlərə 10 il müddətində hər ay istehlak olunan kommunal xidmətlərin (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) tariflərinə uyğun olaraq ödədikləri vəsaitin 20%-i qədər dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı ödənilir.

Mövcud motivasiyalar xarici iş adamlarının da işğaldan azad edilmiş ərazilərdə mövcud sənaye parklarında əlverişli investisiya imkanlarından yararlanmasına şərait yaradır. Onlar innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi prosesində fəal sərmayədar olmaqla Azərbaycanda rəqəmsal “yaşıl sənaye iqtisadiyyatı”nın üzvü ola bilərlər.

Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında qısa bir zamanda bu cür iqtisadi modellərin təşkili Azərbaycanın yeni sənayeləşmə siyasətinə əhəmiyyətli töhfə verəcək, bu bölgənin sənaye gücünün hərəkətə gətririlməsi, ilk sənaye məhsulu buraxılışının təmin edilməsində cığırlar açacaq. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda qeyri-neft-qaz sənaye ixracının payının 25 faiz artırılması nəzərdə tutulub. İşğaldan azad edilmiş ərazilərdə sənaye texnoparklarının istehsal və emal fəaliyyətinə başlaması bu bölgənin Azərbaycanın sənaye ixracına qoşulmasına, ölkə iqtisadiyyatında əlavə dəyərin yaradılmasına və ÜDM-in artmasına da imkan yaradacaq.

***E.CƏFƏRLİ***

# “Naxçıvan Bank” qeyri-bank qurumuna çevrildi

## Maliyyə göstəriciləri yaxşı olmayan bir neçə bankı da eyni tale gözləyə bilər

Uzun müddətdir ki, Azərbaycanın yeganə regional bankı hesab olan “Naxçıvan Bank”ın lisenziyasının ləğv olunacağı ilə bağlı gözləntilər özünü doğrultdu. Mərkəzi Bankın (MB) müvafiq qərarına əsasən, adıçəkilən bank vahidinin lisenziyası ləğv edildi, bankın kapital bazası əsasında isə “E-Kredit” MMC, yəni bank olmayan kredit təşkilatı (BOKT) təsis olundu. “Naxçıvan Bank”ın bütün aktivləri, o cümlədən kredit tələbləri hüquqi varisi olan “E-Kredit” BOKT-a keçdi. Kredit təşkilatı öz fəaliyyətini “Naxçıvan Bank”ın əvvəlki hüquqi ünvanında həyata keçirəcək.

“Naxçıvan Bank”ın bağlanmasının bank sisteminin sağlamlaşdırılması ilə bağlı aparılan siyasətin nəticəsində baş verdiyi şübhəsizdir. Muxtar Respublikanın adını daşıyan bankın maliyyə göstəriciləri o qədər pis olmasa da, aktivlərin azalması və likvidliyinin pisləşməsi də diqqətdən qaçmayıb. “Naxçıvanbank” ASC bu ilin ilk rübündə 12 milyon manata yaxın kiçilib. Bankın aktivləri 1 aprel 2024-cü il tarixinə 194,6 milyon manat təşkil edib. Bu isə 2023-cü ilin sonu ilə müqayisədə 11,6 milyon manat, yaxud 5,6 faiz azdır. Bankın əsas gəlir mənbəyi olan kredit portfeli isə bu dövrdə 27,6 milyon manat və ya 20,7 faiz azalaraq 103,6 milyon manata enib. Ümumilikdə, bankın öhdəlikləri təxminən 127,6 milyon manata bərabər olub ki, bu, ilin əvvəlinə nisbətən 16,6 milyon manat və ya 11,5 faiz azalma deməkdir. Nəticədə bankın yığımlarının tempi aşağı düşüb, cari və digər öhdəliklər artıb. Bu isə bankın likvidlik göstəricilərini pisləşdirib.Ölkənin bank bazarında göstəricilərin dinamikasında “Naxçıvanbank” ən son yerlərdən birini tutmaqla ən az mənfəət əldə edənlərdən biri olub.

Ancaq bütün bunlara baxmayaraq, sözügedən maliyyə qurumun maliyyə durumu ilə bağlı bir sıra öhdəliklərini icra edib və bunun qarşılığında defolt həddinə çatmaqdan da xilas olub. Bunu Mərkəzi Bankın rəsmi açıqlamasından da görmək olar, MB-nin qeyd etdiyinə görə, “Naxçıvan Bank” ASC-nin maliyyə dayanıqlığı göstəriciləri müəyyən edilmiş prudensial tələblər çərçivəsində olub, bu isə bankın lisenziyasının məcburi qaydada ləğv edilmədiyini, bankın BOKT-a çevrilməsinin onun səhmdarlarının qəbul etdiyi biznes qərarı əsasında baş verdiyini göstərir. Proses də məhz səhmdarların öz istəyi ilə tənzimlənib və “Bankların yenidən təşkili haqqında Qaydalar” əsasında bankın qeyri-bank təşkilatına çevrilməsi rəsmiləşib.

## Bankın müştəriləri qarşısında borcu və öhdəlikləri necə olacaq?

İlk növbədə, bankın müştərilər qarşısında öhdəliklərinin yeni çərçivəsi müəyyən olunacaq. Ən əsası yenidən təşkil çərçivəsində “Naxçıvan Bank” əmanətçiləri və digər kreditorları qarşısında olan öhdəliklərinin yerinə yetirilməsi planı üzrə icraat həyata keçiriləcək. Əmanətçilərin depozitləri müvafiq bank qaydalarına uyğun olaraq sığortalanmış vəsaitlər üzrə tam şəkildə, faizlər də daxil olmaqla ödəniləcək. Fiziki və hüquqi şəxslərin hesabları üzrə qalıqlar (təxminən 342 min manat isə Mərkəzi Bankda açılmış xüsusi hesaba köçürüləcək, artıq bu proses demək olar ki, təmin edilib. Fiziki şəxslər hesab qalıqlarını nağd şəkildə, fərdi sahibkar və hüquqi şəxslər isə hesab qalıqlarını digər bank hesabına köçürmə yolu ilə iyulun 25-dən etibarən MB-ın Naxçıvan şöbəsindəki inzibati binada əldə edəcəklər. Digər kreditorlar qarşısında olan




öhdəlikləri isə “Naxçıvan Bank” ötən müddətdə tam icra edib.

## “Naxçıvan Bank”ın lisenziyasının ləğv olunaraq BOKT-a çevrilməsi nəyi dəyişəcək?

Qeyd edilən bankın lisenziyasının ləğvi ölkənin bank bazarı üçün heç bir çətinlik yaratmayacaq, çünki “Naxçıvan Bank”ın bank sektorunda payı 1 faiz təşkil edirdi ki, bank sistemi üçün heç bir təsiredici xarakter daşımır. Bank bundan sonra “E-Kredit” MMC kimi fəaliyyət göstərməklə müştərilərə kredit verə biləcək, amma əmanət cəlb etməsi mümkün olmayacaq. Yalnız MB-nin xüsusi razılığı olduğu halda girov əmanəti qəbul edə bilər.

“Naxçıvan Bank”ın lisenziyasının ləğv edilməsinin fonunda onu ehtimal etmək mümkündür ki, ölkəmizin bank sektorunda aparılan islahatlar çərçivəsində likvidlik göstəriciləri aşağı düşürməkdə olan bankların bazardan çıxması labüddür. MB-nin növbəti illik plana uyğun yoxlaması zamanı bank sektoru üçün bu cür xarakterik halların meydana çıxması istisna deyil. Bu hallar yaxın bank bazarının təcrübəsindən tanışdır. Ötən il həmin plan çərçivəsində öz likvidliyini itirmiş bankların lisenziyasının ləğvi də bunu təsdiqləyir. Məsələn, sonuncu dəfə aparılan yoxlama zamanı da bu tendensiyanı müşahidə etdik, ötən il “Günay Bank” və“Muğan Bank” ASC-nin lisenziyası ləğv edilib. Yəni bu prosesin bitmədiyi və 2024-cü ildə də ödəmə qabiliyyəti zəifləyən, öz öhdəliklərini icra etməyən bankların bağlanması istisna deyil.

Bir məsələni də qeyd etmək lazımdır ki, “Naxçıvanbank” və digər bu maliyyə vahidi kimi kiçik qurumların ümumi resursları və aktivləri Azərbaycanın bank sektorunun hərəkətlilik və kredit-resurs axınlarının ötürücülüyü baxımdan ümumi bank sektoruna əhəmiyyətli təsiredici gücə malik deyil. Bu cür bankların ölkənin bank sisteminin aktivlərində xüsusi çəkisi 1,5 faiz, kredit portfelində isə 2 faiz, sektorun öhdəliklərində isə cəmi 1,4 -1,5 faizdən çox deyildi. Hazırda ölkənin bank bazarında aktivlərinin payı 1-2 faiz olan bir neçə bank da qalır ki, bu amil həmin bank qurumları üçün də təhlükənin sovuşmadığından xəbər verir. Ona görə də vətəndaşlar əmanətlərini yerləşdirən zaman, eləcə də sahibkarlar banklarda hesab açarkən həmin bankların maliyyə göstəricilərinə diqqət yetirməlidirlər.

***E.CƏFƏRLİ***

# Qazaxıstan Orta Dəhlizi genişləndirir

## Kurik limanının Trans-Xəzərə birləşdirilməsi Bakı Beynəlxalq Limanında daşınmaları artıracaq

Qazaxıstan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunda (Orta Dəhliz) öz mövqeyini möhkəmləndirmək üçün zəruri nəqliyyat infrastrukturlarını yeniləşdirir və regional tranzit xətlərini əsaslı şəkildə təmir edir. Bu tədbirlər çərçivəsində qazax hökuməti Məngistay vilayətində uzunluğu 64 kilometr olan Kurık və Jetıbay kəndlərini birləşdirən respublika əhəmiyyətli yolun əsaslı təmirini başa çatdırıb. Bu nəqliyyat qovşağı Kurık dəniz limanını Orta Dəhlizə birləşdirməklə Qazaxıstanın beynəlxalq nəqliyyat marşrutlarında imkanlarını artıracaq. Belə ki, Kurık-Jetibay yolu ən rentabelli və axıcı nəqliyyat xətti kimi beynəlxalq yük və daşınmaların birbaşa Kurık limanına yönləndirilməsində qısa və nəqliyyat sərfəliliyi baxımından ən rahat infrastruktur şəbəkəsi hesab edilir. Əgər əvvəllər sürücülər Aktauda dayanmalı olurdusa, indi onlar Jetıbay kəndi vasitəsilə dəniz limanına daha tez və rahat çatacaqlar.

Qazaxıstanın nəqliyyat naziri Marat Karabayev bildirib ki, sovetlər dövründə, ötən əsrin 70-ci illərində istismara yararsız hala düşən və regional daşınmalardan kənarlaşdırılan bu yol Orta Dəhliz ideyası ortaya çıxdıqdan sonra hökuməti hərəkətə keçirməyə vadar edib və yolun rekonstruksiyasına qərar verilib. Bu yolun Kurık limanına birbaşa nəqliyyat bağlantısını təmin etmək imkanları və Orta Dəhlizin ən hərəkətli optimal nöqtəsinə çevrilmək potensialı Qazaxıstan hökuməti ilə yanaşı, Çinin, digər qlobal nəqliyyat təchizatçılarının da müzakirələrində əsas müzakirə mövzusu olub. Bundan başqa, ABŞ və Avropa İttifaqı da Orta Dəhlizin genişləndirilməsi imkanlarını qiymətləndirərkən Astana hökumətini şaxələndirilmiş nəqliyyat xətlərinin rekonustruksiyasına dəstəyini ifad ediblər. Ötən ay Astanada Orta Dəhliz üzrə Avropa İttifaqı-Mərkəzi Asiya Koordinasiya Platforması işə başlayıb. Avropa Komissiyasının beynəlxalq əməkdaşlıq üzrə baş direktoru Henrik Hololey və Avropa İttifaqının (Aİ) Qazaxıstandakı səfiri Kestutis Yankauskasın qatıldığı tədbirdə Orta Dəhliz üzrə əməkdaşlığın inkişafına dair imkanlar müzakirə edilib, region ölkələrinin bu tranzit alyansında vahid birliyinin perspektiv əhəmiyyətinə dair fikirlər səsləndirilib. Trans-Qazaxıstan dəhlizinin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (Orta Dəhliz) sıx əlaqələndirilməsi üçün yeni infrastrukturların yaradılması və ümumilikdə, Orta Dəhlizinin böyük coğrafi imkanları nəzərə alınmaqla nəqliyyat hərəkətliliyinin intensivləşdirilməsi üçün sərmayə yatırılması məsələlərinə toxunulub.

Avropa Komissiyasının beynəlxalq əməkdaşlıq üzrə baş direktoru Henrik Holole Mərkəzi Asiya ölkələrinin Orta Dəhlizin formalaşması istiqamətində səylərini müsbət dəyərləndirib, onların bu iradəsi sayəsində vahdi Asiya-Avropa nəqliyyat blokunun tam rentabelli işinin təmin ediləcəyini vurğulayıb. Bu prosesdə Aİ-nin bütün zəruri dəstəkləri verəcəyi xatırlanıb.

Göründüyü kimi bütün qlobal təchizatçılar Qazaxıstaının mövcud yol-nəqliyyat, liman infrastrukturlarının Trans-Xəzər dəhlizinin ən ötürücü və axıcı olmasını bəyan edir. Bu isə yuxarıda vurğuladığımız kimi Astananın liman infrastrukturlarını Orta Dəhlizinin bütün komponentləri ilə əlaqələndirməsində qəti addımlar atmasını təmin edib.

Trans-Xəzərin ən mühüm qovşaqlarından biri hesab edilən Kurık dəniz limanı yükdaşımaların həcminə görə, son illərdə əhəmiyyətini artırmaqdadır. Bu dəniz limanı 600-ə yaxın bərə, 16,5 mindən çox vaqon, 23,6 mindən çox yük və sərnişin daşıyan nəqliyyat vasitəsinə xidmət göstərməyə qadir böyük infrastruktur bazasına malikdir. Kurik həm də Azərbaycanın Qazaxıstan və dünya ilə liman bağlantısında mühüm rol oynayır. Bir neçə il əvvəl Türk Dövlətləri Təşkilatının (TDT) zirvə görüşü çərçivəsində Bakı Beynəlxalq Dəniz Limanı ilə Kurık Limanı arasında memorandum imzalanıb və yeni



nəqliyyat zənciri formalaşıb. Aktau ilə yanaşı, həmin limandan daşınan beynəlxalq yüklər Xəzər dənizi vasitəsilə Bakı Beynəlxalq Limanına, oradan isə Gürcüstan, Türkiyə və Avropa ölkələrinə göndərilir. Son 2 ildə Ələt-Kurık-Ələt istiqamətində yükdaşımaların intensivləşməsi də bunu təsdiqləyir.

Ümumilikdə, ötən il Kurik limanından təxminən 2,2  milyon tondan çox beynəlxalq daşınmalar həyata keçirilib ki, bu imanın gücünun son bir ildə 20 faizdən çox artması deməkdir. Hazırda isə Kurık-Jetıbay yolunun limana birləşdirilməsi isə Orta Dəhlizin yeni ünvanı kimi bu nəqliyyat sxeminin gücünün ən azı 2 dəfə artmasına səbəb olacaq. Yeni infrastrukturun qurulması Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun qlobal əhəmiyyətini daha da artıracaq. Çin-Qazaxıstan-Xəzər dənizi-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa İttifaqı coğrafiyasında böyük bir nəqliyyat arteriyasının ötürücülük gücünün yüksəlməsinə imkan verəcək.

Baş verənlər Azərbaycan üçün də xüsusi əhəmiyyət kəsb edir. Son 2 ildə regionda yaranmış yeni geosiyasi düzənin fonunda meydana çıxmış nəqliyyat-logistika xətlərinin şaxələndirilməsi isə bu marşrutların çoxşaxəliliyinin təmin edilməsinin daha da aktuallaşması fonunda Qazaxıstan və Azərbaycan arasında Orta Dəhlizdə ortaq maraqları möhkəmləndirib. Qazaxıstanın dövlət başçısının Azərbaycana səfərləri zamanı ən aktual mövzulardan biri kimi Trans-Xəzərin müzakirə olunması müzakirə olunub. 2024-cü ilin mart ayında Qazaxıstan Prezidenti Qasım-Comərd Tokayevin Azərbaycana dövlət səfəri zamanı Siandan Bakıya gələn konteyner qatarının birgə qarşılanma mərasimi keçirilib və bu, Çin-Qazaxıstan-Azərbaycan nəqliyyat ittifaqının faktiki nümayişi kimi yadda qalıb. Qazaxıstan Çinlə iqtisadi-ticari münasibətlərin inkişafı fonunda Pekinin bu dəstəyinə arxalanaraq TransXəzərə olan ehtiyacını bəyan edib.

TransXəzər dəhlizinin növbəti dayanacağı Zəngəzur xətti olacaq ki, nəticədə Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsi tam təmin ediləcək. Beləliklə, türk dövlətlərinin vahid iqtisadi-nəqliyyat platformalarından biri olan  Orta Dəhliz qlobal arteriya kimi strateji əhəmiyyətini daha da artırmaqdadır.

***ELBRUS CƏFƏRLİ***




# 30 yaşlı Nazirlik...

## Dövlətin gənclər və idman siyasəti

Ölkəmizdə gənclər siyasətinin əsasını qoyan Heydər Əliyev gəncləri Azərbaycanın gələcək qurucuları adlandırır, onların imkan və bacarıqlarını yüksək qiymətləndirirdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması bu sahədə mühüm tədbirlərin həyata keçirilməsinə geniş imkan vermişdi. Daha sonra isə Prezident İlham Əliyevin diqqət və qayğısı əsasında ölkəmizdə dövlət gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşamağa başlayıb. Ölkə başçısının bu istiqamətdə qəbul etdiyi qərarlar, təsdiq etdiyi Dövlət proqramları uğurla icra olunur və öz müsbət nəticələrini verir.

Əsası Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Yeri gəlmişkən, bu gün Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin yaranmasının 30 ili tamam olur. 1994-cü il iyulun 26-da Ulu Öndərin imzaladığı Fərmanla Gənclər, İdman və Turizm Nazirliyi yaradılıb. 2006-cı ildə isə Prezident İlham Əliyevin Fərmanı ilə Gənclər və İdman Nazirliyi yenidən təşkil olunub. Bununla da gənclər siyasətinin əsas icra orqanının qarşısında yeni vəzifələr müəyyənləşdirilib.

Yenidən təşkil olunan Gənclər və İdman Nazirliyi Azərbaycan gəncliyinin formalaşmasında və inkişafında, ölkəmizdə idmanın tərəqqisində mühüm rol oynayan ən böyük qurumdur. Sevindirici haldır ki, bu gün ölkə gəncliyi yaradılan əlverişli imkanlardan bəhrələnərək Azərbaycana yeni-yeni uğurlar qazandırır. Hazırda ölkəmizdə çoxlu sayda gənclər təşkilatı fəaliyyət göstərir, minlərlə gənc lider yetişib. Bu gənclər müxtəlif sahələrdə Azərbaycanın inkişafında, dövlət siyasətinin uğurla həyata keçirilməsində, eləcə də ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında mühüm rol oynayırlar.

Dövlət gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması da mühüm yer tutur. İndi bütün bölgələrdə yeni Olimpiya İdman kompleksləri tikilərək istifadəyə verilib. 1997-ci ildən Milli Olimpiya Komitəsinə rəhbərlik edən İlham Əliyevin ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. İdmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur.

Azərbaycanın dünya idmanına ən böyük töhfəsi ölkəmizin 2015-ci ildə tarixdə ilk Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi etməsi oldu. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi 30 aylıq qısa bir müddətdə inanılmaz nailiyyətə imza ataraq bu mötəbər idman turnirini ən yüksək səviyyədə təşkil etməyə nail oldu. Azərbaycan təkcə təşkilatçılığı ilə deyil, atletlərimizin uğurlu çıxışları ilə də Prezident İlham Əliyevin dediyi kimi, Avropa Oyunlarının standartlarını müəyyənləşdirdi.

Bu mötəbər idman turnirindən qısa müddət sonra 2016-cı ildə ölkəmiz 42-ci Ümumdünya Şahmat Olimpiadasına, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına, 2019-cu ildə UEFA Avropa Liqasının final qarşılaşmasına, XV Avropa Gənclər Olimpiya Festivalına, eləcə də Formula 1 Qran-Prisinə ev sahibliyi edib.

Ölkəmizdə idmanın inkişafı və gənclərlə iş sahəsində çoxşaxəli fəaliyyət həyata keçirən, bu sahədə dövlət siyasətinin uğurla reallaşmasında vacib rol oynayan Gənclər və İdman Nazirliyinin 30 illik uğurlu fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Beləliklə, Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir...

*Yeganə BAYRAMOVA*

# Mühüm görüş...

## Sahibkarlarla Əməkdaşlıq Şurasının növbəti iclası keçirilib

Bu günlərdə Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin yanında Sahibkarlarla Əməkdaşlıq Şurasının növbəti iclası keçirilib. İclasda şuranın üzvləri tərəfindən irəli sürülən təkliflər və ölkə sahibkarlarının qarşısında duran çağırışlar ətrafında fikir mübadiləsi aparılıb.

Görüş zamanı sahibkarların maliyyə sektoru ilə əməkdaşlıq imkanlarının genişləndirilməsi və maliyyə resurslarına çıxış potensialının artırılması məsələləri müzakirə olunub. Həmçinin regionlarda maliyyə inklüzivliyinin gücləndirilməsi və maliyyə məlumatlılığının artırılması istiqamətində həyata keçirilən təşəbbüslərin vacibliyi diqqətə çatdırılıb.

**791 sahibkara elektron çıxarış verilib**

Təbii ki, bu kimi görüşlərin keçirilməsi sahibkarlar üçün əlverişli mühitin yaranmasında mühüm zəmin rolunu oynayır. Ancaq sahibkarlara dövlət dəstəyi bununla bitmir. Bu gün istər paytaxtda, istərsə də regionlarımızda yaradılan azad bazar institutu ölkədə sahibkarlığın inkişafına dəstək verir. Belə ki, Prezidentin "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına uyğun olaraq, istismarına icazə verilən obyektlərə çıxarışın verilməsi davam edir.

Artıq ölkə üzrə 791 bu cür qeyri-yaşayış obyekti üzərində mülkiyyət hüququ dövlət qeydiyyatına alınıb. Çıxarışla təmin edilmiş obyektlər paytaxt Bakı ilə yanaşı, ölkənin regionlarını da əhatə edir.

Fərmanın icrası çərçivəsində iyulun 24-də Bərdə və Tərtər rayonlarında da bu kateqoriyadan olan obyektlərin çıxarışları sahibkarlara təqdim olunub. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin sektor müdiri Elmar Yaqubov KİV-ə müsahibəsində bildirib ki, bu ilin iyulun 20-dək 7990 qeyri-yaşayış binasının yerləşdiyi torpaq sahəsinə dair yerquruluşu planı tərtib edilərək aidiyyəti üzrə təqdim olunub. Onun sözlərinə görə, 791 qeyri-yaşayış binası üzərində mülkiyyət hüququ dövlət qeydiyyatına alınaraq, hüquq sahibləri elektron çıxarışla təmin edilib.

E.Yaqubov qeyd edib ki, qeyri-yaşayış binalarına mülkiyyət hüququnu təsdiq edən sənədlərin verilməsi sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, daşınmaz əmlak bazarının canlanmasına geniş imkanlar yaradır: "Belə ki, sahibkarlar mülkiyyət hüququ təsdiq olunmuş əmlakını girov, sığorta, alqı-satqı və digər əməliyyatlar üçün istifadə edə bilərlər. Sahibkarlıq subyektlərinin əmlakına mülkiyyət hüquqlarının tanınması yeni iş yerlərinin açılmasına, sosial ödənişlərin həcminin artmasına, məşğulluq səviyyəsinin yüksəldilməsinə əhəmiyyətli töhfə verir. Fərmanın icrası qeyri-yaşayış təyinatlı tikinti obyektlərinin təhlükəsiz istismarının təmin edilməsi baxımından da xüsusi önəm kəsb edir.




Fərmanına uyğun olaraq, istismarına icazə verilən obyektlərə çıxarışın verilməsi sahibkarlar tərəfindən razılıqla qarşılanır. Uzun illər fəaliyyət göstərən obyektlərini sənədləşdirə bilməyən sahibkarlar yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə edirlər".

**Artıq sahibkarlıq fəaliyyətimizi genişləndirə bilərik...**

Bərdə rayonundan olan sahibkar Ramiz Vəliyev bildirib ki, 2022-ci ildən mebel mağazası fəaliyyət göstərsə də, mağazanı sənədləşdirə bilməyib: "Bu da bir sahibkar kimi bizim üçün bir sıra çətinliklər yaradırdı. Prezidentin müvafiq Fərmanından sonra aidiyyəti qurumlara müraciət etdik və məsələ öz həllini tapdı. Bu gün obyektimizin çıxarışı təqdim olundu. Artıq binanı rahat şəkildə girov qoya, sahibkarlıq fəaliyyətimizi genişləndirmək üçün kredit götürə bilərik. Göstərdiyi diqqətə görə Prezidentimizə minnətdaram".

**Fəaliyyətimizdə çətinliklər olurdu, indi isə...**

Tərtər rayonundan olan sahibkar Xəqani Qasımov isə qeyd edib ki, obyekti 30 ilə yaxın idi ki, fəaliyyət göstərsə də çıxarış yox idi: "Dövlət başçısının Fərmanından sonra müraciət etdim, qısa vaxtda müvafiq qurumlar tərəfindən çıxarışla təmin edildim. Sahəsi 155 kvadratmetr olan obyektimiz aptek və gözəllik salonu kimi fəaliyyət göstərir. Lakin obyektin sənədi olmadığı üçün fəaliyyətimizdə çətinliklər olurdu. Artıq sənədlərimiz tam qaydasındadır. Əməyi olan hər kəsə təşəkkürümü bildirirəm".

**6 ayda 200 mindən çox xidmət...**

Qeyd edək ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) verilən məlumata görə, cari ilin yanvar-iyun ayları ərzində KOB evlərində sahibkarlara 208 min 194 xidmət göstərilib. Bu xidmətlərin 158 minə yaxını "Bakı KOB evi"nin, 41 mindən çoxu "Yevlax KOB evi"nin, 9 mindən çoxu isə "Xaçmaz KOB evi"nin payına düşür.

KOB evlərində sahibkarlara göstərilmiş xidmətlərin 189 mindən çoxu dövlət qurumları (G2B), 20 minə yaxını isə biznes qurumları (B2B) tərəfindən təqdim edilib. Sahibkarlar KOB evlərinə daha çox yükdaşımaları həyata keçirmək üçün icazə blankı, fərqlənmə nişanı, mənşə sertifikatı, açıq məkanda reklam yerləşdirilməsinə icazə, fiziki şəxsin vergi uçotuna alınması və digər vergi məsələləri, gömrük, kommunal və digər ödənişlər, bank xidmətlərindən istifadə üçün müraciət edirlər.

Sahibkarların KOB evlərində göstərilən xidmətlərdən məmnunluq səviyyəsi isə 98 faiz təşkil edir.

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti üzrə hazırlanmışdır**

# Okampo yenidən erməni səhnəsində

Ayrı-ayrı Avropa ölkələrində erməni lobbisinin at oynatdığı, Azərbaycanjofobiyanın geniş intişar tapdığı hər kəsə bəllidir. Burada biz koordinasiya edilmiş məkrli fəaliyyətləri izləyirik. Lobbi Azərbaycanofobiyaya mübtəla olmuş vəzifəli şəxslərə, parlament təmsilçilərinə ölkəmizin əleyhinə sifarişlər verir və onlar da aldıqları rüşvət müqabilində verilən tapşırıqları yerinə yetirməkdən ötrü dəridən-qabıqdan çıxırlar. Belələrindən biri də Beynəlxalq Cinayət Məhkəməsinin sabiq baş prokuroru Luis Moreno Okampodur. Adı Qərbdə respublikamıza qarşı qərəzli davranışlar nümayiş etdirənlərin siyahısında ön sıralarda gələn Luis Moreno Okampo bu günlərdə yenidən fəallaşıb. O, aldığı sifarişlər əsasında dünya ermənilərini noyabrda Azərbaycanda keçiriləcək COP29-a qarşı kampaniyaya başlamağa çağırış edib.

## Qaranlıq keçmişə malik birisi

Luis Moreno Okampo haqqında qısa şəkildə belə deyə bilərik: O, qaranlıq keçmişə malik birisidir. Həmin qaranlıq dünyadan bəzi məqamlara işıq salaq. Yeri gəlmişkən, bununla bağlı transmilli mediada zaman-zaman Okamponu ifşa edən çoxsaylı məlumatlar dərc olunub. Almaniyanın nüfuzlu "Spiegel" nəşrinin 2017-ci ildə dərc etdiyi qalmaqallı məqalədə Okamponun hələ prokuror işlədiyi dövrdə vergi cənnətləri sayılan Panama və Virciniya adalarında müxtəlif şirkətlərə idarəçiliyi həyata keçirdiyi, ancaq bunu bəyan etmədiyi barədə məqamlar yer alıb. Eyni zamanda, o, bir sıra məxfi sənədləri və məlumatları məşhurlarla, milyarderlərlə paylaşıb. Bu siyahıda aktyorlar Ancelina Coli, Corc Kluni, EBAY-ın həmtəsisçisinin həyat yoldaşı Pierre Omidyarın adları keçir.



Başqa faktlar barədə. 2012-ci ilin 15 avqust tarixində - BCM-in prokuroru vəzifəsindən ayrıldıqdan cəmi 2 ay 10 gün sonra Okamponun Hollandiyanın ABN Amro bankındakı hesabına 50 min dollar pul köçürülüb. Pul İsveçrədəki hesabdan daxil olmuşdu və Panamada yerləşən "Tain Bay" korporasiyası tərəfindən Avropaya göndərilmişdi. Pul transferləri getdikcə artmağa başladı. Növbəti aylarda 140 min dollar Hollandiyadakı hesaba bir neçə tranşla yenə də Panamadan daxil oldu. Bəlkə də, Okampo hər şeyi inkar edəcəkdi, əgər jurnalist araşdırmaları onunla bağlı təkzibolunmaz faktları üzə çıxarmasaydı. Beləliklə, əldə edilən məlumatlardan və bəzi sənədlərin jurnalistlər tərəfindən araşdırılmasından sonra Panamadakı "Tain Bay" korporasiyasının arxasında həqiqətən də Okamponun və həyat yoldaşının olduğu təsdiqləndi. Moreno prokuror kimi fəaliyyətini başa vurduqdan sonra aktivlərini təmkinli şəkildə dəyişdirmək istəyirdi. Eyni zamanda, "Tain Bay" Okamponun yeganə ofşor şirkəti deyil. Sənədlər sübut edir ki, keçmiş prokuror həm də Britaniya Virciniya adalarında (BVI) da bir şirkətin sahibidir. Belizdəki "Lucia Enterprises" şirkəti də onun həyat yoldaşına məxsusdur. Okampo ailəsinin nəzarətində olan daha bir şirkət - "Transparent Markets" Uruqvayda qeydiyyatdan keçib.

Okampo ailəsinin öz şirkətlərini qayda-qanunlardan uzaq yerlərdə qurması və onlara distant idarəçiliyi həyata keçirməsi də səbəbsiz deyil. Okampo özü bəhs olunan məkanların qayda-qanunlarına yaxşı bələddir. Axı o, bir vaxtlar Transparency International təşkilatının Latın Amerikası və Karib hövzəsi üzrə prezidenti vəzifəsində çalışıb. Təşkilat uzun müddətdir ki, vergi cənnətlərində maliyyə sirri ilə "mübarizədə" fəaldır. Məlum məkanlarla uzun illəri əhatə edən tanışlıq, burada qurulan əlaqələr Okamponu sehirli bir qüvvə kimi həmin yerlərdə şəxsi biznes qurmağa sövq edib.

Eyni zamanda, Avropa İstintaq Əməkdaşlıq şəbəkəsi Moreno Okamponun Liviyadakı hərbi cinayətkarları dəstəkləməkdə şübhəli bilinən müştərisi olması barədə hesabat təqdim edib. Həmin hesabatda Okamonun da adı keçir.

## Ermənistanın iştirakı olmadan erməni separatçılarına himayədarlıq

Ermənidən artıq erməni olmağa çalışan eks prokuror dünya ermənilərinə ünvanladığı açıq məktubunda kütləvi informasiya vasitələrinin Azərbaycanda cəza çəkən qondarma rejimin separatçı "rəhbərlərini" azad etmək üçün kampaniyaya başlamasını istəyib. Qeyd edək ki, Okampo bu havaya xeyli vaxtdır ki, qol götürüb oynayır. Belə görünür ki, erməni lobbisindən gələn şabaşlar onu COP29 ərəfəsində yenidən cuşa gətirib. Okampo 44 günlük müharibə zamanı Gəncə və digər şəhərlərimizin bombalanması əmrini şəxsən verdiyini etiraf edən Araik Arutyunyan, qondarma quruma rəhbərlik etmiş Bako Saakyan və Arkadi Qukasyan, erməni milyarder Ruben Vardanyanla şəxsən tanış olub. Okampo erməni lobbisinin sifarişlərinə uyğun olaraq separatçı rejimə dəstək göstərib və bunu daha "səmərəli" şəkildə etmək üçün "liderlərlə" təmaslar qurub. Təsdiqlənən faktdır ki, vaxtilə Araik məhz Okampodan Qarabağdakı vəziyyətə münasibət bildirməyi xahiş edib. Eks prokuror da tapşırığı yerinə yetirib və Qarabağda mövcud vəziyyət barədə qərəzli hesabat dərc edib. Keçmiş prokurorun Qarabağda "humanitar fəlakət" yaşanması ilə bağlı yersiz iddiası hətta Qərb mediası tərəfindən təkzib olunmuşdu. Bu dələduz işğaldan azad edilən Qarabağda "etnik təmizləmə"lərə yol verildiyini belə iddia edib.

Burada bir məqama xüsusi diqqət çəkmək lazım gəlir. Lobbi ilə Ermənistan hakimiyyəti arasında adları Okamponun siyahısında yer alan separatçılara münasibətdə ortaq mövqe yoxdur. Rəsmi İrəvan qeyd olunan şəxslərlə bağlı heç bir mövqe ortaya qoymayıb. Belə çıxır ki, xaricdəki erməni lobbisi Ermənistan hakimiyyətinin iradəsinə zidd olaraq separatçılara himayədarlıq edir və Okampo da bu xorda yer alır.

Ancaq xaricdəki erməni lobbisi və onların sifarişlərini yerinə yetirən okampolar nə qədər fəallıq göstərsələr də, Azərbaycanın separatçılarla bağlı qəti, birmənalı mövqeyinə heç hansı bir təsir göstərə bilməyəcəklər. Separatçılar Azərbaycana qarşı dövləti cinayətə yol veriblər, onların əli dinc azərbaycanlıların qanına batıb. Buna görə də separatçıların istintaq təcridxanasında oturub məhkəmənin onlara kəsəcəyi ağır cəzanı gözləməkdən başqa çarələri yoxdur.

*MÜBARİZ*

# Yaxın Şərq NATO-su yarana bilərmi?

## Netanyahu ABŞ-a "Avraam Alyansı" yaratmağı təklif edib

İsrailin Baş naziri Benyamin Netanyahu ABŞ-a Yaxın Şərqdə NATO-ya bənzər təşkilat yaratmağı təklif edib. O, təklifi ABŞ-a səfəri zamanı səsləndirib. Konqresdə çıxışı zamanı Netanyahu bildirib ki, ABŞ və İsrail Yaxın Şərqdə təhlükəsizlik alyansı yarada bilər. Netanyahu xatırladıb ki, İkinci Dünya müharibəsindən sonra ABŞ artan sovet təhlükəsinə qarşı çıxmaq üçün Avropada təhlükəsizlik ittifaqı yaratmışdı. "İsraillə sülh içində olan və gələcəkdə sülh içində olacaq bütün ölkələr bu alyansa dəvət olunacaqlar",- deyə İsrailin Baş naziri qeyd edib. Baş nazir yeni alyansı 2020-2021-ci ildə İsrailin bir sıra ölkələrlə imzaladığı "Avraam sazişi"nə uyğun olaraq "Avraam Alyansı" adlandırmağı təklif edib. Xatırladaq ki, 2020-ci ildə ABŞ-ın ovaxtkı Prezidenti Donald Trampın vasitəçiliyi ilə Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Mərakeşin İsraillə münasibətlərin normallaşması haqqında "Avraam anlaşması" imzalanmışdı. Sonradan Sudan da bu anlaşmaya qoşulub. Bu, ərəb ölkələri ilə yəhudi dövləti arasında atılan vacib addımlardandır. Anlaşmada təhlükəsizliyin təmin olunması da aparıcı şərtlərdən sayılır.

Onu da qeyd edək ki, Donald Tramp ABŞ prezidenti olarkən Yaxın Şərqdə yeni bir hərbi alyans deyil, NATO-nun bu regiona qədər genişlənməsi ideyasını ortaya atmış və NATO-nun adının dəyişdirilməsi təklifi ilə çıxış etmişdi. O, bunu 2020-ci ilin yanvarında NATO-nun Baş katibi Yens Stoltenberqə telefon danışığında təklif edib. Ağ Evin o vaxtkı rəhbəri bildirib ki, NATO Yaxın Şərqdə qoşunlarını yerləşdirməlidir. Əks halda bu yük ABŞ-ın üzərində qalıb. Buna görə də, Tramp hərbi alyansın adının NATOME-yə (NATO və Yaxın Şərq (Middle East)) dəyişdirilməsini təklif etmişdi. İndi isə İsrailin Baş naziri belə bir təkliflə çıxış edib.



### İlyas Hüseynov: Yeni alyansın yaranmasında Türkiyənin mövqeyi müstəsna əhəmiyyət kəsb edir

Bəs, Yaxın Şərq NATO-sunun yaradılması nə dərəcədə real ola bilər? Məsələ ilə bağlı qəzetimizə açıqlama verən politoloq İlyas Hüseynov bildirib ki, Yaxın Şərqdə davam edən müharibə müxtəlif proseslərlə genişlənir. Həm humanitar faciə, həm də uzun illəri əhatə etməsi ilə bu münaqişə müasir tariximizin acı səhifələrindən biridir. Onun sözlərinə görə, belə bir şəraitdə İsrailin Baş naziri Netanyahu HƏMAS-ın hərbi qanadının tam məğlub edilməsində israrlıdır: "Bu səbəbdən də, Yaxın Şərqdə yeni NATO modeli yaratmaq istəyir. Bu ideyaya ABŞ-ın reaksiyası çox önəmlidir. Eləcə də, Yaxın Şərqdə mühüm aktor olan Türkiyənin bu təklifə münasibəti vacibdir. Türkiyə NATO-nun əsas oyunçularndan biridir və hərbi gücünə görə alyansda ikincidir. Yeni alyans yaranacaqsa, burada Türkiyənin mövqeyi müstəsna əhəmiyyətə malikdir. Digər tərəfdən, İsrail çalışır ki, yeni alyansın yaradılması ilə özünə hərbi müttəfiqlər toplasın. Çünki dünyanın müxtəlif regionlarında İsrailin hərbi əməliyyatlarına qarşı ciddi etiraz aksiyaları keçrilir. Hətta ABŞ-ın özündə də etirazların ardı-arası kəsilmir. Bu, İsrailin siyasi hakimiyyəti və ordu rəhbərliyinin imicinə ziyan vurur. Ona görə də, İsrail bu məsələdə yeni müttəfiqlər axtarışındadır".



### Ədalət Verdiyev: Yaxın Şərq NATO-sunun yaradılması hazırda real görünmür

Hərbi ekspert Ədalət Vəliyev isə hesab edir ki, İsrailin Baş naziri Netanyahu tərəfindən Yaxın Şərq NATO-sunun analoqu ola biləcək təhlükəsizlik çətirinin yaradılması təklifinin həyata keçməsi hazırda real görünmür. Onun sözlərinə görə, İkinci Dünya müharibəsindən sonra NATO-ya alternativ olacaq bir sıra təşkilatlar yaradılmışdı: "1954-cü ildə belə bir təşkilat Pakistan, Filippin, Avstraliya, Fransa, Yeni Zelandiya, Tailand, Böyük Britaniya və ABŞ-ın iştirakı ilə yaradılmışdı. Bu təşkilat da üzv ölkələrə qarşı təhdidlərin birgə aradan qaldırılması üçün məsləhətləşmələrin keçirilməsini və digər fəaliyyətləri nəzərdə tuturdu. Bu müqavilə üzvləri xarici təhlükələrdən qorumağa və daxili təhdidləri aradan qaldırmağa yönəlmişdi. Bir sözlə desək, həmin platforma Sakit okean hövzəsində yerləşən ölkələrin bir NATO modeli idi. Müəyyən vaxtdan sonra həmin ölkələrin bəziləri onu tərk etdi və 1977-ci ildə təşkilat özünü buraxdı".

Hərbi ekspert, həmçinin Yaxın Şərqdə Bağdad Paktı adlanan SENTO təşkilatını xatırladıb. Burada isə Türkiyə, İran, İraq, Pakistan və Böyük Britaniya təmsil olunurdu və təşkilat Yaxın Şərqdə Sovet İttifaqının nüfuzunun qarşını önləməyə hesablanmışdı. O da effektli təşkilat olmadı. Bundan əlavə, Avropa ölkələri də NATO asılılığından qurtulmaq üçün zaman-zaman vahid Avropa ordusunun və yaxud NATO-nun analoqu ola biləcək birləşmiş hərbi təşkilatın qurulmasını dəfələrlə təklif ediblər. Amma bu ideya hələ də təklif olaraq qalmaqdadır.

"Xüsusilə də, təhlükəszilik və sülhün əldə olunması istiqamətində kifayət qədər ziddiyyətli yanaşmaların olduğu Yaxın Şərqdə eyni təhlükəsizlik konsepsiyası əsasında vahid təhlükəsizlik çətiri yaratmaq elə də asan məsələ olmayacaq. Bu işin, həm də böyük maliyyə yükü var ki, əsas maliyyə yükünü hansı ölkələrin qarşılayacağı sual altındadır. Odur ki, B.Netanyahunun səsləndirdiyi fikrin hazırda aktual olduğunu düşünmürəm. İsrailin təhlükəsizlik məsələlərini daha çox ikitərəfli müqavilələrlə təmin etməsi daha məntiqli olardı. Yəni kollektiv təhlükəsizliyin təmin olunması məsələsi bu gün üçün İsrailin əldə edəcəyi nailiyyət kimi görünmür. Amma İsrail Şərqin bir sıra aparıcı dövlətləri ilə ikitərəfli formatda təhlükəsizlik məsələlərində müəyyən irəliləyişlər əldə edə bilər",- deyə Ə.Verdiyev vurğulayıb.

*Nardar BAYRAMLI*

# Almaniya icazə verməyəcək...

## Berlin Rusiya ilə birbaşa qarşıdurmaya getməməyə çalışır

Rusiya-Ukrayna müharibəsinin davam etməsi fonunda Qərb ölkələrinin Kiyevə hərbi dəstəyinin yeni mərhələsi başlayıb. Xüsusilə, hərbi dəstək NATO-nun Vaşinqton sammitindən sonra daha da güclənməyə başlayıb. Məsələn, Danimarka və Niderland yayın sonunadək Ukraynaya daha 14 "Leopard 2" tankı tədarük edəcək. Bu barədə Niderland Müdafiə Nazirliyinin saytında yerləşdirilən məlumatda deyilir. "Ötən il Niderland və Danimarka "Rheinmetall" kompaniyası tərəfindən əsaslı təmir edilən 14 "Leopard 2A4" tankı alıb. Tanklar yayın sonunadək Kiyevə təhvil veriləcək", - deyə məlumatda bildirilir. Niderlandın müdafiə naziri Ruben Brekelmans isə öz növbəsində döyüş meydanındakı çətin vəziyyətlə əlaqədar Ukraynanın daha çox hərbi dəstəyə ehtiyacı olduğunu qeyd edib. Onun sözlərinə görə, Amsterdam tərəfdaşları və müttəfiqləri ilə birgə Ukraynaya lazımi dəstəyi davam etdirəcək.

**Olaf Şolts: Silahlarımızın Rusiya ərazisinə nüfuz etməsinə icazə verməyəcəyik**

Qeyd edək ki, rəsmi Kiyevin NATO tərəfdaşlarından əsas istəklərindən biri onların verdiyi silahlarla Rusiya ərazisinin vurulmasına icazə verilməsidir. Hətta Ukraynaya dəstək üçün hərbçilərin göndərilməsi barədə da çağırışlar var. Fransa bir müddət öncə bir qrup hərbçidən ibarət heyəti bu ölkəyə göndərdiyini bəyan etmişdi. Lakin Almaniya rəsmi Kiyevin istəyinə mənfi cavab verib. "Mən Ukraynaya əsgər göndərməyəcəyəm, alman pilotları və qırıcıları ilə birlikdə Rusiya təyyarələrini və raketlərini vurmayacağam". Bunu Almaniya Kansleri Olaf Şolts Saarbrükendə vətəndaşlarla görüşü zamanı deyib. "Biz Rusiya ilə NATO arasında müharibəyə səbəb olacaq heç bir iş görməyəcəyik. Və silahlarımızın Rusiya ərazisinə nüfuz etməsinə icazə verməyəcəyik", - deyə Kansler bəyan edib.



Bununla belə, bəzi ölkələr Ukraynaya göndərdikləri silahlarla Rusiya ərazisini vurmağa icazə veriblər. Əgər bir müddət öncəyə qədər Qərbin aparıcı dövlətləri, eyni zamanda, NATO üzvü olan mərkəzi Avropa ölkələri onların silahları ilə Rusiyaya qarşı zərbələr endirməyə icazə vermirdilərsə, bu qadağa aradan qaldırılıb. Xatırladaq ki, hələ bir müddət öncə bir sıra ölkələr bunu NATO-Rusiya qarşıdurmasının məşqi olacağını söyləyirdilər. Bildirilirdi ki, hazırkı məqamda NATO-nun Rusiyaya qarşı hərbi əməliyyatlara başlaması real deyil. Amma verilən qərarlar bunun əksini göstərir. Məlumdur ki, Böyük Britaniya, Latviya, Litva, Niderland, Polşa, Finlandiya, Fransa, Çexiya, İsveç və Estoniya Ukraynaya öz silahları ilə Rusiya ərazisinə zərbələr endirməyə icazə verib. Bir müddət öncə verdiyi açıqlamada NATO-nun Baş katibi Yens Stoltenberq də Rusiyadakı silah obyektlərinin məhv edilməsi üçün Qərb silahlarının istifadəsinə qoyulan qadağanın aradan qaldırılmasına çağırmışdı. Xatırladaq ki, bir qrup ABŞ Konqresinin üzvü Ukraynanın Rusiya ərazisinə qarşı hücumlarda ABŞ silahlarından istifadə etməsinə icazə verilməsini istəmişdi. Qeyd etdiyimiz kimi, NATO-ya sonuncu üzv qəbul edilən İsveç də Kiyevə belə bir icazə verib.

**Berlin Kiyevə hərbi yardım baxımından dünyada ikincidir**

Almaniya bu məsələdə tərəddüd etsə də, Ukraynaya kifayət qədər hərbi dəstək göstərib. Kansler Şolts da sözügedən görüşdə xatırladıb ki, ABŞ-dən sonra Ukraynanın əsas dəstəkçisi Almaniya hesab olunur. Ümumilikdə, Almaniya Kiyevə hərbi dəstək üçün təxminən 28 milyard avroluq gələcək xərcləri öz üzərinə götürüb.

**Rusiya seyrçi qalmaq fikrində deyil**

Nəzərə alaq ki, ABŞ bu münaqişənin davam etməsinə maraqlı görünür. Qərb müharibəyə qarşı çıxan Şərqi Avropa ölkələrini təzyiq altında saxlayır. Yaxın zamanlarda NATO-nun Ukraynaya əlavə hərbi yardım paketini təsdiqləməyə hazırlaşması da bunun göstəricisidir. Bu paketə Ukraynaya təlim və təhlükəsizlik yardımının çatdırılmasının asanlaşdırılması üçün Almaniyanın Visbaden şəhərində NATO komandanlığının yaradılması da daxildir. Yeni yaradılacaq NATO komandanlığı ABŞ-ın indiyə kimi həyata keçirdiyi təhlükəsizlik yardımı və təlimlərin koordinasiyası ilə bağlı rəhbərlik missiyasını öz üzərinə götürəcək. Komandanlıqla yanaşı, NATO-nun şərq bölgələrində logistika qovşaqları olacaq.

Təbii ki, Rusiya Qərbin bu addımlarına qarşı seyrçi qalmaq fikrində deyil. Rəsmi Moskva dəfələrlə bəyan edib ki, NATO silahları ilə ölkəyə hücum cavabsız qalmayacaq. Ona görə də, Almaniya bu məsələdə mümkün qədər ehtiyatlı davranmağa və Rusiya ilə birbaşa qarşıdurmaya getməməyə çalışır.

*N.BAYRAMLI*

# Qərbsayağı "sülh ismarıcı"

## Ermənistanın sürətlə hərbiləşdirilməsi ABŞ-ın sülh çağırışları ilə tərs mütənasibdir

Ermənistan hakimiyyətinin Qərbin himayəsi altına sığınması artıq hərbi kontekstdə də özünü qabarıq göstərməkdədir. Rusiyanın təşəbbüsü ilə yaradılmış KTMT-nin üzvü olan Ermənistan nə qədər paradoksal olsa da, əks qütbün təmsilçiləri ilə hərbi əməkdaşlığı gücləndirir. ABŞ və Ermənistanın birgə hərbi təlim keçirməsi bu baxımdan, diqqəti cəlb edir. Belə ki, 15-24 iyul tarixlərində Ermənistanda "Eagle Partner 2024" kod adlı ABŞ-Ermənistan birgə təlimləri baş tutub. Rəsmi məlumata görə, təlimlərin məqsədi beynəlxalq sülhməramlı missiyalarda iştirak edən bölmələr arasında koordinasiyanın səviyyəsinin yüksəldilməsi, idarəetmə və kommunikasiya sahəsində təcrübə mübadiləsi və Ermənistan hərbçilərinin döyüş hazırlığının artırılmasıdır. Birgə hərbi təlimləri ABŞ-ın Ermənistandakı səfiri də izləyib. İyulun 24-də isə təlimin rəsmi bağlanış mərasimi keçirilib.

### ABŞ Ermənistanda hərbi mövcudluğunu gücləndirir

Xatırladaq ki, bu, Ermənistanla ABŞ arasında ilk belə hərbi təlim deyil. Ötən ilin sentyabrında da "Eagle Partner 2023" kod adlı ABŞ-Ermənistan birgə təlimləri keçirilmişdi. Erməni hərbi ekspert Leonid Nersisyan hesab edir ki, Ermənistanda keçirilən birgə hərbi təlimlər yalnız başlanğıcdır: "Ən əsası odur ki, ABŞ əvvəllər Ermənistan ərazisində hərbi təlimlər keçirməyib. Bu, çox ciddi addımdır". Onun sözlərinə görə, hazırda Ermənistan ordusunun daha ciddi hərbi təlimlərə, məsələn, quru qoşunlarının təlimlərinə ehtiyacı var: "Söhbət təkcə hərbi təlimlər və ABŞ-la hərbi sahədə əməkdaşlıqdan getmir. Məsələn, artıq Amerika ordusunun nümayəndəsinin Ermənistanın Müdafiə Nazirliyində işləməsi ilə bağlı qərar var ki, bunu da çox mühüm sayıram". ABŞ Dövlət katibinin mülki təhlükəsizlik, demokratiya və insan haqları üzrə müavini Uzra Zeya isə "Hetq" nəşrinə müsahibəsində ABŞ ordusunun nümayəndəsinin Ermənistan Müdafiə



Nazirliyində çalışacağını təsdiqləyib. Bir müddət əvvəl ABŞ-ın Ermənistandakı səfiri Kristina Quinn də bildirmişdi ki, ABŞ və Ermənistan təhlükəsizlik və müdafiə məsələləri üzrə "çox aktiv və mənalı" müzakirələr aparır. O, həmçinin qeyd edib ki, ABŞ Ermənistan Müdafiə Nazirliyinə müşavir təyin etmək niyyətindədir.

### Parisdən ermənilərə neokolonializm hədiyyəsi

Eyni zamanda, Fransa da Ermənistanı fəal şəkildə silahlandırır. Bu ölkə də Ermənistan vasitəsilə Cənubi Qafqazda öz maraqlarını təmin etməyə çalışır. Parisin məqsədi regionda yeni müharibə alovlandırmaqdır. Bundan əlavə, Fransa Ermənistanda kök salmaqla neokolonializm siyasətini Cənubi Qafqaza da ixrac etmək məqsədi güdür. Yəni Paris erməniləri də öz koloniyasına daxil etmək və onlardan öz məqsədləri üçün istifadə etməyi hədəfləyib. Ermənistanın Beynəlxalq Frankofoniya Təşkilatına üzv qəbul olunması da prosesin ilk addımı hesab oluna bilər. Fransa ilə yanaşı, Hindistan da Ermənistana silah satışını davam etdirir. Təsadüfi deyil ki, Ermənistan ordusunun hərbi qulluqçuları ABŞ-la birgə təlimlər zamanı Hindistan istehsalı olan dəbilqəyə quraşdırılan termal görüntülü monokulyardan istifadə ediblər. Hindistanın "Tonbo Imaging" şirkətinin istehsalı olan bu avadanlıqlar Ermənistan ordusunda əvvəllər mövcud olmayıb. Hazırda isə Ermənistandan başqa Hindistan ordusu da "Spartan-SH" adlanan bu monokulyardan məhdud sayda əldə edib.

### Xəyanətkar Paşinyan üçün fürsət

Ümumiyyətlə, məsələnin görünməyən tərəfi bütün region üçün narahatlıq doğuran perspektivlərlə bağlıdır. Burada bir sıra məqamlara diqqət yetirmək lazım gəlir. Məğlub Ermənistanda baş qaldıran revanşizmin birgə hərbi təlimlərin baş tutmasına səbəb olan əsas amillərdən biri kimi qeyd edə bilərik. Sülh prosesinin müəyyən qədər irəlilədiyi bir ərəfədə Ermənistanda revanşizm mövqeyindən çıxış edən qüvvələr fəallıqlarını artırıblar. Paralel şəkildə bu ölkədə hakimiyyətin də mövqeyinin sürüşkən olduğu sezilir. İkinci məqam xəyanətkar xislətli Ermənistanın Rusiyadan qopmaq, Qərbə yaxınlaşmaq istəyini özündə ehtiva edir. İndiyədək Ermənistan Rusiyadan hərtərəfli şəkildə asılı olub. Bu ölkə mövcudluğuna görə məhz Rusiyaya borcludur. Bəs, Ermənistanın minnətdarlığı nədən ibarətdir? - Xəyanətdən. Deyə bilərik ki, bu ölkədə siyasi oriyentasiyanın dəyişməsi dövlət siyasəti səviyyəsinə yüksəldilib. Hazırda məlum səbəblərdən Rusiyanın başı müharibəyə qarışıb. Ermənistan isə öz ənənəvi xislətinə uyğun olaraq tabeçilik ünvanını dəyişməyə, hazırda ona istədiyi qədər yardım, dəstək göstərməyən Rusiyadan qopmağa cəhdlər edir. Eyni zamanda, hazırda N.Paşinyan Rusiyanı öz hakimiyyəti üçün ən böyük təhlükə sayır.

Üçüncü mühüm məqam isə Ermənistanın istəyi ilə Qərbin Cənubi Qafqaz siyasətinin üst-üstə düşməsi ilə bağlıdır. Cənubi Qafqazda Rusiyanı əvəzləmək və burada möhkəmlənmək Qərbin çoxdankı planlarına daxildir. Qərb dairələri Rusiyanın geostrateji mövqeyinin çətinləşdiyi, həmçinin N.Paşinyan iqtidarının sürüşkənliyi fonunda əzəli planlarının reallaşdırılması üçün ən uyğun zaman yetişdiyini düşünür.

Lakin Ermənistan anlamalıdır ki, regionda sabitliyi və sülhü təmin etməyin yeganə yolu qonşu ölkələrin suverenliyinin və ərazi bütövlüyünün tanınmasıdır. Eyni zamanda, həmin şərtlərə əməl etməklə münasibətlər qurulmalı və bu istiqamətdə təhlükə yaradan çağırışlar aradan qaldırılmalıdır. Rəsmi İrəvan həqiqətən sülhün tərəfdarıdırsa, əməli fəaliyyəti ilə bunu nümayiş etdirməlidir. Əks halda, revanşizmin artması, silahlanmanın davam etməsi Ermənistanın özü üçün ciddi problemlər yaradacaq.

*Nardar BAYRAMLI*

# Fəzail Miskinli: Yolda əlimizdə saz görəndə bizi məsxərəyə qoyurdular



Müsahibimiz tanınmış aşıq, Azərbaycan Aşıqlar Birliyinin üzvü, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar müəllim, dosent Fəzail Miskinlidir:

**- Fəzail bəy, siz Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini teatrşünaslıq ixtisası üzrə bitirmisiniz. İncəsənət sahəsinə gəlişiniz necə oldu?**

- Mən saza-sözə bağlı bir yurddanam- Gədəbəy rayonundan. Mən uşaq olanda rayonumuzda "Saz bayramı, yaz bayramı" adlı böyük bir festival keçirilirdi. Böyük sənətkarımız, SSRİ Xalq artisti Zeynəb Xanlarova öz ansamblı ilə o festivalda çıxış edirdi. O vaxtdan mənim arzum, istəyim məhz incəsənət sahəsinə idi və çox istəyirdim ki, Mədəniyyət və İncəsənət Universitetinə qəbul olum. Sonrakı arzum isə burada müəllim kimi fəaliyyət göstərmək idi. Allaha çox şükürlər olsun ki, arzum-niyyətim həyata keçdi. Atalar demişkən, niyyətin hara, mənzilin ora. Hər zaman sənət adamlarına ekrandan əl çatmaz insan kimi baxırdım. Tale elə gətirdi ki, vaxtilə əlçatmaz kimi baxdığım insanlarla sonradan eyni təhsil ocağında çiyin-çiyinə çalışmaq qismətim oldu.

Tələbəlik illərinin həm qayğılı, həm də xoş anları var. 1993-cü ildə Mədəniyyət və İncəsənət Universitetinə qəbul oldum, ilk gündən də sinif nümayəndəsi seçildim. 1997-ci ildə magistraturaya, 1999-cu ildə isə aspiranturaya (indiki doktoranturaya) qəbul oldum və hər birində də yenə sinif nümayəndəsi oldum. Aspiranturanın son kursunda müdafiə edib sənətşünaslıq üzrə fəlsəfə doktoru alimlik dərəcəsini aldım. Biz burada həm tələbə kimi, həm də bir sənət adamı kimi yetişdik. Çünki bizi tez-tez müxtəlif dövlət tədbirlərinə, çəkilişlərə göndərirdilər.

**- Demək, hələ o illərdən öncə universitetinizi, sonra isə ölkənizi təmsil etmək məsuliyyətinə yiyələnmisiniz.**

- Bəli, 1997-ci ildən etibarən həm ölkə daxilində, həm də ölkəmizdən kənarda əksər dövlət tədbirlərində iştirak etmişəm. Qazaxıstanda Kruman Kazi mükafatına, Özbəkistanda Narbek Baxşı mükafatına, Malayziyada müsəlman dünyası musiqi festivalının mükafatına, Qırğızıstanda Manas mükafatına, Türkiyədə Yunis Emre və Aşıq Şenlik, Konyada Mövlana mükafatına layiq görülmüşəm. Bütün bunlarla böyük qürur hissi keçirirəm ki, dövlətimiz tərəfindən hər zaman etimad göstərilib və bu sənətin daşıyıcısı kimi ölkəmizi dünyanın hər tərəfindən layiqincə təmsil edə bilmişəm.

Aşıq sənəti ən qədim tarixə malik bir sənətdir. Xalqımızın başlıca milli-mənəvi dəyərlərindən biri, hətta birincisi ozan-aşıq sənətidir. Azərbaycan milli musiqisinin iki əsas sütunu var: ozan-aşıq sənəti və muğam. Ona görə də hər zaman bu sənətə layiqincə xidmət etməli və çalışmalıyıq ki, xələl gəlməsin. Özünə xələl gələ bilər, amma bu sənətə şüurlu şəkildə xələl gətirmək yolverilməzdir. Həm şəxsiyyətimizi, həm də sənətimizi qorumalıyıq. Çünki sənəti daşıyan sənət adamıdır. Onun şəxsiyyətində problem varsa, mütləq nə zamansa sənətində də özünü göstərəcək.

**- Dram rejissorluğunu bitirmisiniz, aşıq sənəti ilə məşğulsunuz. İki sənətin oxşarlığı və fərqi maraqlıdır. Təhsil aldığınız ixtisasın daşıdığınız sənətə təsiri necədir?**

- Bakalavr pilləsində dram rejissorluğu, magistratura və aspiranturada isə teatrşünaslıq ixtisası üzrə təhsil almışam. Çox maraqlı bir məqama toxundunuz. Təhsilimi tamamladıqdan sonra müəyyən müddət Kinostudiyada rejissor assistenti kimi çalışdım. Onda gördüm ki, Azərbaycan filmi getdikcə tənəzzülə uğrayır. Çünki o dövrlər ümumilikdə ölkəmiz üçün çox çətin zamanlar idi və müəyyən sahələrə özünü ayaqda tuta bilmək və yenidən müəyyən səviyyəyə gəlib çatmaq üçün vaxt lazım idi. Sonradan teatr sənəti ilə aşıq sənətinin bağlılığı haqqında elmi iş götürmək istədim. Bu iki sənət bir-biri ilə çox bağlıdır. Bir aktyorun teatrı və bir aşığın teatrı deyə anlamlar var. Biz buna monoteatr deyirik. Hər iki sənətdə yaşama sənəti və göstərmə sənəti var. Aşıq dastan danışarkən həm Koroğlu olur, həm Keçəl Həmzə, həm Nigar olur. Eləcə də bir aktyor kimi bunu tamaşaçıya göstərir. Bu mövzu məni düşündürürdü və beləliklə, mən "Azərbaycan teatr mədəniyyətində dastan janrının təzahür formaları" mövzusunda elmi iş yazdım. Yəni teatr sənəti ilə aşıq sənətini həm elmi işimdə, həm də öz həyatımda bir-birinə bağladım. Onu da qeyd edim ki, Azərbaycan aşıqları içərisində ilk namizədlik dissertasiyasını mən müdafiə etmişəm. Çox sevinirəm ki, bundan sonra bizim dəyərli ifaçılarımız elmi tədqiqatla məşğul oldular və artıq onlar da alim kimi fəaliyyət göstərirlər.

Etiraf edək ki, nəzəriyyəçilər çox zaman təcrübəni, yəni ifaçılığı elə də yaxşı bilmirlər. Amma ifaçı tədqiqatla məşğul olub, nəzəriyyəni dərindən araşdıranda bu zaman çox gözəl vəhdət yaranır. Çünki o, həm təcrübəni, həm də nəzəriyyəni gözəl bilir. Təcrübəni bilən adam nəzəriyyəni tez zamanda öyrənib bu sahədə də ciddi uğurlar qazana bilər. Amma nəzəriyyəçinin təcrübə qazanıb sənətə yiyələnməsi çox çətin məsələdir.

Mən bir il Teatrşünaslıq kafedrasında müəllim kimi çalışdım. Sonradan isə Mədəniyyət və İncəsənət Universitetində Aşıq sənəti kafedrası yaradıldı və mən də burada aşıq sənətindən dərs deməyə başladım. İlk vaxtlarda burda cəmi iki müəllim var idi, ustad sənətkarımız Aşıq Əhliman və mən. Biz belə bir kafedranın yaradılması üçün çox təşəbbüs göstərdik və sağ olsunlar, səsimizi eşitdilər və öncə aşıq sənəti ixtisası, sonradan isə ayrıca kafedrası yaradıldı.

Aşıq sənəti türkün qədim sənətidir. Belə bir söz var ki, türk sazın çanağından çıxıb. Türkün bir əlində qılınc, birində saz olub. Böyük Türk dünyasını, türkdilli xalqları da bir nöqtədə birləşdirən məhz bizim sazımız, qopuzumuzdur.

**- Fəzail Miskinli necə müəllimdir?**

- Tələbələrimə ilk dediyim o olur ki, mütləq şəkildə hər şeydən öncə şəxsiyyətinizi qoruyun. Çünki birinci özünüz öz şəxsiyyətinizə hörmət etdikdə kənardakı da hörmət edəcək. İkinci növbədə, mütləq sənətlə şəxsiyyət arasında vəhdət yaranmalıdır. Hamının savadı, istedadı eyni deyil ki, ola bilər sənətin bir az aşağı səviyyədə ola bilər, amma şəxsiyyətin yüksək olmalıdır. Həmçinin tələbələrimə deyirəm ki, bacardığınız qədər savadlı olmağa çalışın. Təkcə təcrübə ilə kifayətlənməyin, nəzəriyyəni də mükəmməl öyrənin. O zaman hər yerdə yolunuz açıq olacaq. Bütün bunlardan əlavə isə mütləq vətənpərvər olun. Türkün bütün dövrlərində aşıq, ozan öndə gedib, ona "el atası" deyiblər. Bu sənətin sanbalını, dəyərini dərk etməliyik. Saza adi musiqi aləti kimi baxmaq olmaz. O, türkün keçmişi, bu günü, gələcəyidir, milli-mənəvi dəyəridir. Bacardığım qədər tələbələrimə bunları aşılayıram. Çalışıram ki, gələcəkdə haradasa adım bir pedaqoq kimi çəkiləndə müsbət mənada çəkilsin.

**- Müasir dövrümüzdə aşıq sənətinə münasibətdən razısınızmı?**

- Vaxtilə universitetimiz Fəvvarələr meydanında yerləşirdi. Mən rejissorluqda oxusam da, dərsə sazla gedirdim. Yolda əlimizdə saz görəndə bizi məsxərəyə qoyurdular. Sanki biz bu xalqın bir övladı deyilik, başqa bir planetdən gəlmişik. O qədər pis təsir edirdi ki mənə. Amma əmin idim ki, vaxt gələcək şəhərimizin mərkəzində, lap elə Fəvvarələr meydanında bizim sazımız, milli musiqimiz ifa olunacaq. Çox şükür ki, həmin gün gəldi. Dövlətimiz öz milli-mənəvi dəyərlərinə sahib çıxır. Bu gün bütün bayramlarda, dövlət tədbirlərində sazımız, milli musiqimiz başqa qərarlaşır. Birinci vitse-prezidentimiz, mədəniyyətimizin, incəsənətimizin keşiyində müsəlləh əsgər kimi dayanan hörmətli Mehriban xanım Əliyevanın sayəsində 2009-cu ildə Azərbaycan aşıq sənəti YUNESKO tərəfindən qəbul olundu və artıq bu sənətə baxış, yanaşma fərqli yöndə inkişaf etməyə başladı. İnsanlarımızın da sənətə münasibəti müsbətə doğru dəyişdi. Nə zamansa bizim yaradıcı ali təhsil ocaqlarımızda ayrıca aşıq sənəti kafedrasının olmağı bizim üçün əlçatmaz bir xülya idi. Amma bu gün biz sizinlə Mədəniyyət və İncəsənət Universitetinin Aşıq sənəti kafedrasında oturub söhbət edirik. Çox istedadlı tələbələrimiz var ki, sazımızı, aşıq sənətini dünyanın müxtəlif ölkələrində təmsil edirlər. Həm dövlət tədbirlərində, həm də el şənliklərində sazımız başdadır. Deməli, biz özümüzə, öz soyumuza, keçmişimizə qayıdırıq. Bütün bunlar dövlətimizin aşıq sənətinə göstərdiyi diqqətin nəticəsidir. Biz də bu diqqətə layiq şəkildə çalışırıq ki, sənətimizi daha yüksək səviyyədə təbliğ edək.

***Şahanə MÜŞFİQ***

# Bayden "məşəli" yeni nəslə niyə ötürür?

## ABŞ Prezidenti xalqa müraciətində Ukrayna və Qəzzadan da danışıb

Payızda keçiriləcək növbəti prezident seçkilərində iştirak etməkdən imtina edən ABŞ Prezidenti Cozef Bayden iyulun 24-də Amerika xalqına müraciət edib. O bildirib ki, irəli getməyin ən yaxşı yolu məşəli yeni nəslə ötürməkdir. Bayden çıxışında Prezident kimi Amerika xalqına xidmət etməkdən şərəf duyduğunu bildirib. "Bir neçə aydan sonra Amerika xalqı Amerikanın gələcək kursunu müəyyən edəcək. Mən seçimimi etdim, öz fikirlərimi bildirdim. Vitse-prezident Kamala Harris təcrübəlidir. O, mənim üçün inanılmaz tərəfdaş və ölkəmiz üçün çox yaxşı liderdir. İndi seçim sizdən, Amerika xalqından asılıdır", - deyə ABŞ Prezidenti qeyd edib.

## Bayden Harrisi özünün xələfi kimi görür

Cozef Baydenin iyulun 21-də namizədliyini geri götürməsindən sonra ştatlar daxilində ciddi proseslər baş verməkdədir. Bu, xüsusilə noyabrda keçiriləcək prezident seçkisi marafonunda müşahidə edilir. Əslində, dövlət başçısının namizədliyini geri götürməsi proqnozlaşdırılan idi. Çünki C.Baydenin əsas rəqibi və Respublikaçıların namizədi Donald Trampın reytinqləri hazırkı ölkə rəhbərinə nisbətən daha çoxdur. Bunun əsas səbəbi C.Baydenin xarici siyasət kursundakı uğursuzluqlarla yanaşı, həm də yaşı, səhhətindəki problemlər, çıxışlarındakı qeyri-adekvat hərəkətləridir. C.Baydenin sözügedən qərarından əvvəl onun koronavirusa yoluxması barədə məlumat da yayıldı. Ən əsası, Respublikaçıların namizədi Donald Trampa qarşı sui-qəsd cəhdi Baydenin reytinqini daha da azaltdı.



## Harris ABŞ-ın ilk qadın prezidenti statusunu qazana bilər

Bəzi ekspertlər hesab edirlər ki, Baydenin yarışdan geri çəkilməsi keçmiş Prezident Donald Trampı məğlub etmək şansını artıracaq. İndi D.Trampın əsas rəqibi ABŞ-ın hazırkı vitse-prezidenti Kamala Harrisdir. Tramp bir neçə gün əvvəl C.Baydenin seçki kampaniyasından geri çəkilməsinə münasibət bildirərək demişdi ki, K.Harrisi məğlub etmək daha asan olacaq. Amma mənzərə fərqlidir. "Röyters" keçirilən sorğuya əsasən, məlumat yayıb ki, keçirilən sorğularda Harris artıq Trampı üstələyir. Halbuki, D.Tramp C.Baydendən xeyli öndə idi.

Seçkilərdə kimin qalib gələcəyini indidən dəqiq demək çətindir. Məlumdur ki, D.Tramp seçkilərdə qalib gələrsə, ABŞ Rusiyaya qarşı daha loyal davranacaq. K.Harris isə yəqin ki, təxminən C.Baydenin siyasətini davam etdirəcək. Bəzi amerikalı ekspertlər hesab edirlər ki, qadın və qaradərili olması K.Harrisin seçkilərdə şanslarını artıra bilər. Əgər K.Harris qalib gələrsə, o, ABŞ-ın ilk qadın dövlət başçısı olacaq.

C.Bayden xalqa müraciətində Ukraynaya dəstək olan dövlətlərin koalisiyasının qorunub saxlayacağına ümidvar olduğunu deyib. "Biz NATO-nu gücləndirməkdə davam edəcəyik və mən onu tariximizin bütün dövrlərindən daha güclü edəcəyəm", - deyə, Prezident qeyd edib.

## ABŞ Yaxın Şərqə sülh gətirəcək?

Diqqət çəkən əsas məqamlardan biri ABŞ Prezidentinin müraciətində Yaxın Şərqdə davam edən münaqişə haqqında fikirləridir. Bayden çıxışında İsrailin Qəzza zolağındakı əməliyyatını yekunlaşdırmaq niyyətində olduğunu bildirib: "Mən Qəzzada müharibəni dayandırmaq, bütün girovları evinə qaytarmaq, Yaxın Şərqə sülh və əminamanlıq gətirmək üçün işləməyə davam edəcəyəm".

Bəs ABŞ Prezidenti Qəzzada müharibənin dayandırılması prosesində nə dərəcədə səmimidir? Məlumdur ki, Qəzza bölgəsində baş verənlər İsrail ilə Fələstin arasında 80 ilə yaxındır ki, davam edən ədavətin bitməsi üçün indiyədək görülən bütün işlərin fiaskoya uğradığını göstərir. Xatırladaq ki, ötən il oktyabrın 7-də HƏMAS qruplaşması İsrailin nəzarətində olan ərazilərə hücum edib, xeyli mülki şəxsi qətlə yetirib və girov götürüb. Buna cavab olaraq İsrail ordusu Qəzzada hərbi əməliyyatlara başlayıb. Həmin il noyabrın 24-də Misir və Qətərin vasitəçiliyi ilə HƏMAS və İsrail arasında dörd günlük humanitar atəşkəs əldə olunub. Razılaşmaya əsasən, İsrail həbsxanalarındakı fələstinli yeniyetmə və qadınların azad edilməsi müqabilində Qəzza sektorunda saxlanılan bir qrup girov azadlığa buraxılıb. Sonradan atəşkəs rejimi eyni şərtlərlə daha iki gün uzadılıb. Dekabrın 1-də isə İsrail ordusu HƏMAS-ı atəşkəsi pozmaqda ittiham edərək Qəzzada yenidən hərbi əməliyyatlara başlayıb.

Mayın 31-də ABŞ Prezidenti Co Bayden Qəzzada üç mərhələdən ibarət sülh nizamlanmasına dair yeni saziş layihəsinin şərtlərini açıqlamışdı və bu plan HƏMAS-a təhvil verilmişdi. Baydenin sözlərinə görə, birinci mərhələ tam atəşkəsi, İsrail hərbçilərinin Qəzzadan çıxarılmasını, həmçinin HƏMAS-ın əlində olan girovların bir qisminin azad edilməsini nəzərdə tutur. Eyni zamanda, həbs olunan fələstinlilər də azad edilməli idi. İkinci mərhələ qalan girovların azad edilməsi müqabilində hərbi əməliyyatların qeyri-müəyyən müddətə dayandırılmasını nəzərdə tuturdu. Bu təşəbbüsün üçüncü mərhələsində isə döyüşlər nəticəsində Qəzza zolağının zərər görmüş yerlərinin yenidən qurulması öz əksini tapırdı.

## Danışıqlar hələ ki, nəticə verməyib

İyunun 11-də isə HƏMAS sözügedən təşəbbüsə cavabın Qətər və Misirdən olan vasitəçilərə ötürüldüyünü elan edib və anklavda müharibəni dayandırmaq üçün razılığa gəlmək üçün müsbət hərəkətlərə hazır olduqlarını bildirib. ABŞ, Misir və Qətər də öz növbəsində HƏMAS-dan cavabın alındığını təsdiqləyib və Qəzzada münaqişə tərəfləri arasında razılıq əldə olunana qədər vasitəçilik səylərini davam etdirəcəklərini vəd ediblər. İsrail isə dəfələrlə Baydenin təklifini dəstəklədiklərini və razılaşmanın qarşısındakı bütün maneələrin yalnız HƏMAS nümayəndələri tərəfindən yaradıldığını deyib. Bu danışıqlara baxmayaraq, ortada hələ də bir nəticə yoxdur, Qəzzada günahsız insanların ölümü davam edir.

Qeyd edək ki, Yaxın Şərqdə münaqişəyə son qoyulması üçün BMT-nin müvafiq qətnamələri var. Bu sənədlər İsrail-Fələstin münaqişəsinin iki dövlətin yaradılması prinsipi ilə həllini nəzərdə tutur. Lakin bu məsələ reallıqda həllini tapmır. İki dövlətin yaradılmasına qarşı çıxanlardan biri də məhz ABŞ-dır. Belə ki, rəsmi Vaşinqton məsələnin BMT Təhlükəsizlik Şurasına çıxarıldığı zaman veto hüququndan istifadə edir. Belə olan halda, C.Baydenin Yaxın Şərqə sülh gətirə biləcəyi inandırıcı deyil.

***N. BAYRAMLI***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Heidi Lamarr: gözəllik və intellekt ikonası

**Dünya şöhrətli aktrisa, alim, yaşadığı dövrün ən gözəl qadınlarından biri, "WİFİ"-nin ixtiraçısı kimi tanınan Hedi Lamarr hər zaman dünyanın ən maraqlı insanlarından biri kimi xatırlanır.**

**O, "Hollivud"un "Qızıl əsr"ində filmlərin ən cazibədar aktrisası adını qazanmışdı. Cazibədar Hedi Lamarr Klark Qabl, Spenser Treysi kimi parlaq aktyorlarla bir səhnədə yer alırdı. O, "Tropiklərin xanımı", "Bum şəhəri", "Samson və Delila" kimi məşhur filmlərə çəkilmişdi. Lakin kino aktyorluğu xanım Heidinin məşğul olduğu yeganə iş deyildi, Hedi Lamarr həm də mobil rabitə və texnologiya sahəsində çox tanınmış bir alim idi. O, yayılan spektr rabitəsi üçün ilkin texniki vasitəni icad etmişdi. Bu icad müasir dövrdə geniş istifadə etdiyimiz simsiz rabitənin açarı sayılır.**

## Filmdən texnoloji kəşflərə

Lamarr Hedviq Eva Maria Kiesler 9 noyabr 1914-cü ildə Avstriyanın paytaxtı Vyanada yəhudi ailəsində anadan olub. Yeniyetmə ikən avstriyalı kinorejissor tərəfindən istedadı kəşf edilən Heidi 1933-cü ildə "Ekstazi" filmində əsas rolların birinə çəkilib. Açıq-saçıqlığına görə dövrün ən qalmaqallı filmlərindən sayılan bu incəsənət nümunəsi gənc xanıma dünya şöhrəti gətirib. Lakin Lamarrın şəxsi həyatındakı sevgi macəraları həmişə uğursuzluqla müşayiət olunub. Bunlardan biri kimi onun nasistlərə silah satan zəngin avstriyalı silah-sursat istehsalçısı Fritz Mandl ilə uğursuz nikahından söz salmaq olar. Bu evliliyin tezliklə böyük skandala çevrilməsindən sonra məşhur aktrisa ABŞ-a köçməyə məcbur qalmışdı. O, çox keçməmiş burada "Hollivud"un məşhur "Metro-Goldwyn-Mayer" studiyası ilə "Hedy Lamarr" təxəllüsü altında müqavilə bağlayır. "Hollivud" film sənayesi ilə sıx əlaqələrindən sonra Lamarrın karyerası yenidən dirçəlməyə başlayır.

"Hollivud"un aparıcı aktrisaları arasında ən gözəl və ekzotik görünüşlü bir xanım kimi yadda qalan Lamarr 1930-40-cı illərdə xeyli uğurlu filmlərə çəkilir. Bu filmlər arasında aktrisanın ən diqqətəlayiq obrazı "Tropiklərin xanımı" (1939) filmindəki baş rolu olur. Heidi Lamarr bir-birinin ardınca film təkliflərini qəbul edir və yüksək məbləğdə qonorar alır.

1942-ci ildə karyerasının çiçəkləndiyi dövrdə Heidi Lamarr incəsənətdən tamamilə fərqli bir sahədə parlamağa başlayır. Aktrisanın ikinci sənəti rabitə texnologiyası sahəsiylə bağlı idi. O, öz dostu bəstəkar Corc Antellə birlikdə İkinci Dünya müharibəsinin qaynar çağında ciddi bir ixtira üzərində işləyir. Alman faşistləri ötürülən mesajların şifrəsini aça bilməsinlər deyə onlar radiotezlikləri dəyişmək imkanına malik xüsusi radio siqnal qurğusunun və "Gizli Rabitə Sistemi" ideyasının həmmüəllifləri kimi patent alırlar. Beləliklə, alman nasistlərini məğlub etmək üçün nəzərdə tutulmuş texnoloji sistem həm hərbi rabitənin, həm də mobil telefonların təhlükəsizliyini qoruyacaq texnologiyanın inkişafında mühüm addım olur.

Doğrudur, Lamarr özünün rabitə ixtirası ilə dərhal məşhurlaşmamışdı. Çünki bu kəşfin miqyası, mahiyyəti onilliklər sonra aydın başa düşüləcəkdi. Buna baxmayaraq 1997-ci ildə Lamarr və Antel cütlüyü Elektron Sərhəd Fondunun (EFF) "Pioner mükafatı"na layiq görüldü. Elə həmin il Lamarr ixtiraçılıq üzrə "Oskar"a bərabər ödül sayılan "BULBIE Gnass Ruhu Uğur Mükafatı"nı alan ilk qadın kimi tarixə düşdü.



## Çoxlu evlilik, tənha ölüm

Elektron texnologiya sahəsində bir sıra ixtiraları ilə tanınsa da, Lamarrın kino karyerası 1950-ci illərdən etibarən geriləməyə başladı. Aktrisanın son filmi Ceyn Pauell ilə baş rolları bölüşdüyü, 1958-ci ildə ekranlara buraxılmış "Qadın heyvan" adlı ekran əsəri oldu.

Heidi Lamarr 1966-cı ildə rekord sayda satılan avtobioqrafik "Ekstazi və mən" adlı kitabını çap etdirdi. Kitabda müəllifdən icazəsiz redaktə işləri görüldüyünə görə xanım Lamarr nəşriyyatı məhkəməyə verdi.

Görkəmli alim, gözəllik simvolu məşhur aktrisa qocalığına yaxın yaddaş zəifliyi və yüngül alzheymer xəstəliyindən əziyyət çəkirdi. O, 1966-cı və 1991-ci illərdə dükandan oğurluq etdiyi üçün iki dəfə məsuliyyətə cəlb olunub, lakin ruhi müvazinətinin pozulduğu nəzərə alınaraq tanınmış sənətçiyə həbs və ya hər hansı hüquqi cəza verilməyib.

Heidi Lamarr altı dəfə ailə qurub. O, 1939-cu ildə Ceyms adlı oğlan uşağını övladlığa götürüb. Xanım Lamarr Ceymsi övladlığa götürən üçüncü əri aktyor Con Loderdən Denis (1945-ci il təvəllüdlü) və Entoni (1947-ci il təvəllüdlü) iki uşaq dünyaya gətirib.

**Çılğın sevgi həyatı və çoxlu evliliyi olan Heidi**

Lamarr ABŞ-ın Florida ştatında yerləşən Orlando şəhərindəki evində tənha həyat sürüb, 2000-ci ildə elə oradaca 85 yaşında vəfat edib.

2017-ci ildə rejissor Aleksandra Din Heidi Lamarr haqqında "Hollivud ulduzluğundan ixtiraçılığa: yeni Bombshell - Heidi Lamarrın hekayəsi" adlı sənədli film çəkib. Bu filmdə müəlliflər Lamarrın qabaqcıl texnoloji kəşflərinə nəzər salmaqla onun cazibədar aktrisadan daha çox alimlik fəaliyyətini, habelə narkotik asılılığı ilə mübarizəsini araşdırıblar.

Heidi Lamarrın ad günü Almaniya və ABŞ-da "ixtiraçılar günü" kimi qeyd olunur.

***Murad Köhnəqala***



## Fərid Qayıbov idman nazirlərinin "Change the Games" beynəlxalq forumuna qatılıb



UNESCO-nun təşkilatçılığı ilə Paris şəhərində idman nazirlərinin "Change the Games" beynəlxalq forumu keçirilib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, "Paris-2024" Yay Olimpiya Oyunları ərəfəsində baş tutan forumda proqram üzrə müxtəlif məsələlər müzakirə olunub.

Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov panel iclaslarında müzakirələrə qatılıb, Azərbaycanın UNESCO və müxtəlif ölkələrin müvafiq qurumları ilə əməkdaşlıq, həyata keçirilən layihələr barədə məlumat verib.

Fərid Qayıbov forum çərçivəsində UNESCO baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Qabriela Ramosla, Çili Respublikasının idman naziri Jaime Pizarro Herrera, Anqolanın gənclər və idman naziri Rui Falkao, Madaqaskarın nəqliyyat və meteorologiya naziri Manambahoaka Valery Fitzgerald Ramonjavelo, Tanzaniya Birləşmiş Respublikasının Nazirlər Kabinetinin ədliyyə və konstitusiya işləri naziri Damas Daniel Ndumbaro, Cənubi Afrika Respublikasının idman, incəsənət və mədəniyyət naziri Zizi Kodva, Samoanın idman və istirahət naziri Laumatiamanu Ringo Mathev Purcell və Kosta-Rika Respublikasının idman naziri Hernan Solano ilə ikitərəfli görüşlər keçirib.

UNESCO-nun ofisində, həmçinin Azərbaycan və Qambiya arasında gənclər və idman sahələrində əməkdaşlıq memorandumu imzalanıb. Sənədi nazir Fərid Qayıbov və Qambiyanın idman və gənclər naziri Bakar Bodji imzalayıblar.

## Avropa Universitet Oyunlarının bağlanış mərasimi keçirilib

Macarıstanın Debretsen və Mişkolts şəhərlərinin ev sahibliyi etdiyi tələbələr arasında 5-ci Avropa Universitet Oyunlarının bağlanış mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Debretsen Universitetinin rektoru Zoltan Szilvassiy, Macarıstanın mədəniyyət və innovasiyalar naziri Balazs Hanko və Avropa Universitet İdman Assosiasiyasının prezidenti Adam Rokzek çıxış ediblər.

Rəsmi çıxışlardan sonra təntənəli konsert proqramı təşkil olunub, rəngarəng şoular nümayiş etdirilib.

Qeyd edək ki, yarışda 36 ölkədən 428 universitetin 3800-ə yaxın tələbəsi 18 idman növü üzrə bacarıqlarını göstəriblər. Azərbaycan idmançıları iyulun 12-dən 24-dək davam edən turnirdə yalnız 5 növdə təmsil olunublar. İdman Akademiyasının tələbələri 2-si qızıl, 2-si gümüş, 1-i bürünc olmaqla, ümumilikdə 5 medal qazanıblar.

## AMADA Yay Olimpiya Oyunlarına lisenziya qazanmış güləşçilər üçün maarifləndirici seminar təşkil edib

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya qazanmış güləşçilər üçün maarifləndirici seminar təşkil edib.




Azərbaycan Güləş Federasiyasından AZƏRTAC-a bildirilib, Qubada keçirilən seminarda mötəbər yarışa aid antidopinq qaydaları barədə ətraflı məlumat verilib. Buraya antidopinq qayda pozuntuları, dopinq nəzarəti prosesi, bu prosesdə idmançıların hüquq və öhdəlikləri, dərman preparatlarının yoxlanılması, terapevtik istifadə üçün istisna və digər mövzular daxildir.

"Paris-2024" Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edəcək güləşçilər, digər yığma üzvləri, o cümlədən məşqçilər və hakimlər AMADA-nın yeni fəaliyyətə başlayan maarifləndirici platformaları barədə də məlumatlandırılıblar.

## Azərbaycanın basketbol millisinin baş məşqçisi: Yaşımız az olsa da, gördüyümüz iş böyükdür

Yaşımız az olsa da, gördüyümüz iş böyükdür.

"Report" xəbər verir ki, bunu Azərbaycanın 18 yaşadək qız basketbolçulardan ibarət millisinin baş məşqçisi Evren Alkaya Avropa çempionatının C divizionunda Gürcüstana qarşı matçdan sonra deyib.

Türkiyəli mütəxəssis oyunun çox çətin keçdiyini söyləyib:

"Çox çətin matç oldu. Xeyli sayda 3 xallıq atış üçün mövqe boşluğu verdik. Müdafiə xətti topu qarşılaya bilmirsə, əlbəttə, boşluqlar yaranır. Müdafiəçilərin çox yorulduğunu da qeyd edim. İlk hissədə 13 dəfə 3 xallıq atışdan top buraxdıq ki, bu da çox böyük rəqəmdir. Heç Superliqa komandalarında bu yoxdur. Cərimə problemləri oldu. Daha sonra öz oyunumuzu göstərdik, çox ribaund etdik və aqressivləşdik. Sonda Azərbaycan adına qələbə qazana bildik".

Baş məşqçi yarımfinalda Kipr yığması ilə üz-üzə gələcəklərini ehtimal edib:

"Böyük ehtimalla yarımfinalda Kipr yığması ilə qarşılaşacağıq. Çünki Kosovo onlardan daha yaxşı oynayır. Kipr də çətin komandadır. Hər şey bugünkü oyunlardan asılı olacaq. Bu arada qarşılaşdığımız rəqiblərin hamısının heyətində 4-5 nəfər 2006 təvəllüdlü basketbolçular var. Bizim oyunçulardan isə 2 nəfər 2007, qalanı 2008 təvəllüdlüdür. Hətta bəzən 14 yaşlı oyunçulara da şans veririk".




Qeyd edək ki, Azərbaycan millisi ilk oyunda Albaniyanı 72:53 hesabı ilə məğlub edib. Qrupdakı ikinci oyunda Gürcüstan üzərində 74:68 hesabı ilə qələbə qazanan komanda Avropa çempionatının yarımfinalına vəsiqə qazanıb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4371**
**Sifariş: 1652**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova